KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 354 Sentyabr 2016



AYLIQ DƏRGİ
ISSN 2218-2772

khazar-review.khazar.org




U MAD?



# İÇİNDƏKİLƏR

"Xəzər"də yeni dərs ili ........ 5
Universitet xəbərləri ........ 8
"Dünya" xəbərləri ........ 10
Avrasiya Akademiyasının qurucu üzvü Lütfi Zadəyə Azərbaycan medalı təqdim olunub ........ 15
Hamlet İsaxanlı Şəhriyara həsr olunmuş beynəlxalq konfransda mükafata layiq görüldü ........ 18
Bolonya prosesi və Azərbaycan təhsili ........ 20
Məzunumuzun böyük uğuru ........ 25
Xəzər Universitetində "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu"nun məzunlarına sertifikat təqdim olundu ........ 28
Şəhriyarın 110 illiyinə həsr edilmiş elmi konfrans ........ 32
Katie Reilly. İs Homework Good for Kids? Here´s What the Research Says ........ 36
NDU xəbərləri ........ 40
Xəzər Universiteti Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında ........ 47
Xəzər Universitetinin müəllimi təhsilini təqaüd proqramı ilə Avstarliyada davam etdirəcək ........ 52
İnstructor of Khazar University Receives a Scholarship to Study in USA ........ 57
Ağalar İdrisoğlu. Öz əsərlərini dünya muzeylərində görmək hər rəssama nəsib olmur ........ 65
Yakob Qoqebaşvili. Beşik mahnısının hikməti ........ 70

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Kriyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Marta Lami

Rəssamı:
Mir Rafiq Əbdülrəhimov

Kompüter tərtibatçısı:
Sevinc Şəfiyevə

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ 1991 BAKI

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Kriyaz Aslan

Editor of English Texts:
Martha Lowry

Design by:
Mir Rafig Abdulrahimov

Computer graphics:
Sevinc Shafiyeva

Photo:
Multimedia Centre











# "Xəzər"də yeni dərs ili

Sentyabrın 15-də Xəzər Universitetində yeni dərs ilinin başlanmasına həsr olunmuş mərasim keçirildi. Mərasimdə universitetə yeni qəbul olunmuş tələbələr, onların valideynləri, universitetin rəhbərliyi və professor-müəllim heyəti iştirak edirdilər.

Mərasim Azərbaycanın Dövlət himninin ifası ilə başlandı. Universitetin rektoru Hassan Niknafs, təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, universitetə qəbul olunmuş gəncləri təbrik etdilər, onlara universitet haqqında məlumat verdilər. Bildirdilər ki, universitetdə yüksək səviyyəli təhsil almaq üçün hər cür şərait yaradılmışdır, universitetin beynəlxalq əlaqələri və proqramları xarici ölkələrin – Avropa, ABŞ və Uzaq Şərq universitetlərində təhsil almaq imkanları yaradır, tələbələrin yalnız yüksək ixtisaslı mütəxəssislər kimi yetişməsinə yox, həm də geniş dünyagörüşlü və mədəni səviyyəli insanlar kimi formalaşmasına ciddi diqqət yetirilir və bunun üçün müxtəlif sənət növləri – musiqi, rəsssamlıq, xalçaçılıq və zərgərlik tədris olunur. Onlar tələbələrə yorulmadan çalışmağı tövsiyə etdilər, onlara uğurlar arzuladılar.

H. İsaxanlı, H. Niknafs, prorektorlar Məhəmməd Nuriyev və İsaxan İsaxanlı, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov və Təhsil fakültəsinin dekanı Elza Səmədova ən yüksək bal toplamış 15 tələbəyə tələbə bileti və hədiyyələr təqdim etdilər, onlarla xatirə şəkli çəkildi.

Universitetə yeni qəbul olunmuş tələbələr adından Murad Nuriyev (maliyyə ixtisası) çıxış etdi. Xəzər Universitetinin geniş imkanlarından bəhrələnərək yüksək ixtisaslı mütəxəssislər kimi yetişmək üçün ciddi səy göstərəcəklərini bildirdi.

Universitetin Musiqi və incəsənət departamentinin hazırladığı konsertdə tələbə qızlar və oğlanlardan ibarət rəqs qrupları məharətlərini nümayiş etdirdilər, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti, universitetin müəllimi Məhsəti Cabbarlının ifasında mahnılar səsləndi.

Mərasim yeni qəbul olunmuş tələbələrin auditoriyalara dəvət olunması ilə başa çatdı. Auditoriyalarda onlar fakültə dekanları və departament müdirləri ilə görüşdülər. Onlara təhsil alacaqları ixtisaslar haqqında ətraflı məlumat verildi, suallar cavablandırıldı.

Xəzər Universitetində yeni dərs ili başlandı.











# New Academic Year Begins









On September 15, an opening ceremony was held to celebrate the beginning of the new academic year at Khazar University. Participants in the ceremony included incoming freshmen and their parents, the university administration, and faculty members.

The ceremony began with the National Anthem of the Azerbaijan Republic. Then speeches were made by Dr. Hasan Niknafs, President of the University, and Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. They congratulated students on their admission to the university and gave them information about Khazar. They also noted that the university will provide them every opportunity to study on a high level and to study abroad in Europe, the USA or Asia via the university's international partnerships and programs. The university aims not only to train highly-qualified specialists, but also to raise up cultured graduates with broad worldviews by exposing them to various arts including music, design, carpet making and jewelry. They encouraged the new students to work hard and wished them success.

Then the 15 freshmen with the top admission examination scores were given their student ID cards and university gifts by H.Isaxanli; H.Niknafs; Vice Presidents Mahammad Nuriyev and Isakhan Isakhanli; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; and Dr. Elza Semedli, Dean of the School of Education.

Freshman Murad Nuriyev (majoring in Finance) made a speech on behalf of the freshman class, noting that they would work hard to take advantage of the opportunities at Khazar.

The Department of Music and Fine Arts gave a concert including performances by the Girls' and Boys' Dance Ensembles and by instructor Mehseti Jabbarli, soloist for the Muslum Magomayev Azerbaijan State Philharmonic.

At the end of the ceremony, the new students were invited to their classrooms, where they met with their deans and department heads. They were given detailed information about their majors and their questions were answered. The new academic year at Khazar University has officially begun.

# QS WORLD UNIVERSITY RANKINGS Xəzər Universiteti QS-in dəyərləndirməsinə görə Azərbaycanda yenə birincidir

2016-cı il senyabrın 6-da QS reytinq təşkilatı dünya üzrə ali təhsil müəssisələrinin 2016-2017-ci il üçün reytinqini müəyyənləşdirmişdir.

Reytinqdə bu il Azərbaycandan 3 ali təhsil müəssisəsi – Xəzər Universiteti, Qafqaz Universiteti və Bakı Dövlət Universiteti iştirak etmişdir. Reytinq siyahısına görə, Xəzər Universiteti 701+ yeri, Azərbaycan universitetləri arasında isə 1-ci yeri tutur.

QS təşkilatı dünya universitetlərinin fəaliyyətini 6 əsas meyar üzrə qiymətləndirir. Bu meyarlar – akademik nüfuz, elmi məqalələrdən sitat gətirmə, müəllim-tələbə nisbəti, işəgötürənlər arasında nüfuz, xarici müəllimlərin və xarici tələbələrin sayıdır. Xəzər Universiteti işəgötürənlərin nüfuzuna, beynəlxalq tələbələrin qəbuluna və müəllim-tələbə nisbətinə görə də Azərbaycan universitetləri arasında birinci yeri tutmuşdur.

Qeyd edək ki, reytinqdə iştirak edən universitetlərin 4000-dən çoxu nəzərə alınmış, 916-sı qiymətləndirilmişdir. Reytinqdə bu il ötən illə müqayisədə daha 25 ali təhsil müəssisəsi qiymətləndirilərək, onların sayı 891-dən 916-ya qalxmışdır.

Ətraflı məlumatı bu link vasitəsilə əldə etmək olar:
http://www.topuniversities.com/university-rankings/world-university-rankings/2016

Qeyd edək ki, Xəzər Universitetinin bu nailiyyəti haqqında ölkənin 20-dək media qurumu xəbər yaymışdır:
http://yenizaman.az/v5/w55852/;
http://echo.az/article.php?aid=105188;
http://sonxeber.az/23058/uc-ali-mektebimiz-dunyanin-en-yaxsi-universitetleri-siyahisinda;
http://milletinsesi.info/index.php?newsid=15064;
http://yenizaman.az/v5/w55852/ və s.

# Khazar University in the First Place in Azerbaijan Again in QS RAtings

On September 6th, 2016, QS World University Rankings revealed ranking results of world universities for 2016-2017.

This year, 3 universities from Azerbaijan -- Khazar University, Qafqaz University and Baku State University -- participated in the ranking. According to the ranking list, Khazar University took 701+ place among the world universities and the 1st place among Azerbaijani universities.

QS World University Rankings uses six key performance indicators to assess the universities: academic reputation, employer reputation, international faculty, citations per faculty, faculty to student ratio and international students. According to employer reputation, international students and faculty to student ratio, Khazar University also took the 1st place among Azerbaijani universities.

Among the universities participating in the rating, m re than 4000 are considered, and 916 are evaluated. Compared to the previous year, 25 more universities were evaluated as a result of which the overall number of evaluated world universities rose from 891 to 916.

For more information:
http://www.topuniversities.com/university-rankings/world-university-rankings/2016

We note that nearly 20 media agencies published information about this accomplishment of Khazar University, including the following:
http://yenizaman.az/v5/w55852/;
http://echo.az/article.php?aid=105188;
http://sonxeber.az/23058/uc-ali-mektebimiz-dunyanin-en-yaxsi-universitetleri-siyahisinda;
http://milletinsesi.info/index.php?newsid=15064;
http://yenizaman.az/v5/w55852/

# Təbriz Universiteti ilə Xəzər Universiteti arasında memorandum imzalandı

Sentyabrın 13-də Təbriz Universiteti ilə Xəzər Universiteti arasında memorandum imzalandı. Universitetin "Neftçilər" kampusunda keçirilən görüşdə Təbriz Universitetinin rektoru Məhəmməd-Reza Pour-Məhəmmədi, Təhsil, Mədəniyyət və Tədqiqat üzrə Akademik Mərkəzin Şərqi Azərbaycan bölməsinin rəhbəri Əhməd Farşbafian, İranın Azərbaycandakı səfirliyinin nümayəndələri, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru Hassan Niknafs, İnzibati və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova iştirak edirdilər.

Rektor Məhəmməd-Reza Pour-Məhəmmədi çıxış etdi və 20.000 tələbəsi, mühəndislik, hüquq, kənd təsərrüfatı və digər sahələrdə çoxsaylı proqramlar təklif edən İranın ikinci ən böyük universiteti –Təbriz Universiteti barəsində görüş iştirakçılarını məlumatlandırdı.

Professor Hamlet İsaxanlı çıxış edərək, Xəzər Universtetinin inkişafı, universitetin beynəlmiləlləşdirmə siyasəti və Təbriz Universiteti ilə əməkdaşlıq maraqlarından danışdı.

Danışıqlar iki universitet arasında əməkdaşlığın prinsipləri, tələbə və işçi mübadiləsi, dərəcə proqramları, tədqiqat və nəşr işləri, bakalavr tələbələrinin elmi işlərinə nəzarət və digər müştərək layihələrin müzakirəsi ilə davam etdi. Sonda iki universitet arasında anlaşma memorandumu imzalandı.

Bu barədə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) də rəsmi İnternet səhifəsində məlumat yayımışdır.

Xəbəri tam şəkildə oxumaq və tədbirdə çəkilmiş şəkillərə baxmaq üçün bu linkə daxil olmaq lazımdır:

http://azertag.az/xeber/Tebriz_ve_Xezer_universitetleri_arasinda_emekdasliga_dair_memorandum_imzalanib-993086.



# Memorandum of Understanding with University of Tabriz Signed

On September 13, Khazar University hosted a delegation from the University of Tabriz. The meeting took place on the Neftchiler campus of Khazar University.

Participants from University of Tabriz included Dr. Mohammadreza Pourmohammadi, Chancellor of Tabriz University; Dr. Ahmad Farshbafian, President of the Research and Development Center Studying Azerbaijan; and representatives of the Embassy of the Islamic Republic of Iran.

Participants from Khazar University included Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Dr. Hasan Niknafs, President of the University; Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs; and Turan Jafarova, Director of the International Office.

Dr. Mohammadreza Pourmohammadi gave a brief presentation about the University of Tabriz. He informed the meeting participants that University of Tabriz is the second largest university in Iran with more than 20,000 students and a wide range of programs in the fields of engineering, agriculture, law, and more.

Then Prof. Hamlet Isaxanli informed the guests about Khazar University, its development and internationalization strategy. He expressed interest in cooperation with the University of Tabriz.

The following topics were discussed: cooperation between the two universities, staff and student exchange, joint degree programs, joint research and publications, supervision of graduate students, joint academic and cultural programs, and other projects of mutual interest. A memorandum of understanding was signed.

AZERTAC (the Azerbaijan State Information Agency) published an article about this on their website. The article and corresponding pictures are available at the following link:

http://azertag.az/xeber/Tebriz_ve_Xezer_universitetleri_arasinda_emekdasliga_dair_memorandum_imzalanib-993086.





# Sumqayıtda "Dünya" məktəbinin yeni binası açıldı




Sentyabrın 14-də "Dünya" məktəbinin Sumqayıtdakı binasının rəsmi açılış mərasimi oldu. Mərasimdə "Dünya" məktəbinin rəhbərliyi, müəllimləri, Sumqayıt "Dünya" məktəbinin rəhbərliyi, müəllim kollektivi, valideynlər və şagirdlər iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açılış nitqində Xəzər Universitetinin, eləcə də, "Dünya" məktəbinin yaranma tarixindən danışdı, Sumqayıtda "Dünya" məktəbinin inkişaf planı barədə fikirlər söylədi. Hazırda Xəzər Universiteti və "Dünya" məktəbinin yüksək reytinqli təhsil ocaqları olduğunu qeyd edən H. İsaxanlı məktəbin əsasının 1998-ci ildə qoyulduğunu, çox az şagirdlə fəaliyyətə başladığını, illər ötdükcə genişlənərək böyük bir təhsil məbədinə çevrildiyini vurğuladı. O, həmçinin "Dünya" məktəbinin Xəzər Universiteti nəzdində fəaliyyət göstərdiyini xatırladaraq, bunu məktəbin inkişafı üçün müsbət bir hal kimi dəyərləndirdi. O, məktəbdə mövcud olan IBO – Beynəlxalq Bakalvr Təşkilatının Diplom Proqramından söz açaraq, bu proqramda təhsil alan şagirdlərin gələcəkdə dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazana biləcəklərini bildirdi. H. İsaxanlı çıxışının sonunda tədbir iştirakçılarını açılış münasibəti ilə təbrik etdi və məktəbdə şagirdlərin yüksək səviyyədə təhsilini təmin etmək üçün hər cür imkanlar yaradıldığını qeyd etdi.

Rəsmi hissə başa çatdıqdan sonra tədbir "Dünya" məktəbi müəllim və tələbələrinin ifasında kiçik konsert proqramı ilə davam etdi. Sonra valideynlərə "Dünya" məktəbinin tarixini və bugününü əks etdirən film nümayiş olundu.

# Dunya School Opens New Branch in Sumgayit

On September 14, 2016, a new branch of Khazar University's affiliate Dunya School opened in Sumgayit with an official ceremony. Participants in the ceremony included Dunya School administrators and teachers, the new administration of the Sumgayit Branch of Dunya School as well as its teachers, parents, and students.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made an opening speech about the history of Khazar University and of the Dunya School. He also spoke about plans for Dunya School's development in Sumgayit. He noted that Khazar University and Dunya School are both highly-rated educational institutions. Dunya School began in 1998 with a very small group of students, but turned into a large private school over the years as its student numbers increased. He also mentioned that Dunya School is affiliated with Khazar University, which is advantageous to the school's development. He informed the audience about the International Baccalaureate (IBO) Diploma Program at the school, which gives graduates an opportunity to study in leading universities worldwide. At the end of his speech, Prof. Isaxanli congratulated the students and promised that the school would create opportunities for them to obtain a high-level education.

After the official part of the ceremony, a small concert was given by Dunya School teachers and students. Then Dunya school parents were shown a film about the school's history.



# “Dünya” məktəbində yeni dərs ilinin açılış mərasimi



Sentyabrın 15-də “Dünya” məktəbində yeni dərs ilinin açılışı oldu. Açılış mərasimində məktəbin təsisçisi Nailə xanım İsayeva çıxış edərək, məktəbliləri yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi, “Dünya” məktəbinin Sumqayıtda yeni açılan binası haqqında məlumat verdi.

Sonra Milli Məclisin deputatı, valideyn Azay Quliyev və Binəqədi Rayon İcra Hakimiyyətinin şöbə müdiri Yəhya Əliyev çıxış edərək, “Dünya” məktəbinin şagird və müəllim kollektivini yeni dərs ilinin başlanması münasibətilə təbrik etdilər, onlara uğurlar arzuladılar.







# Dunya School Opening Ceremony

On September 15, an opening ceremony was held to mark the beginning of the 2016-2017 academic year at Khazar University's affiliate Dunya School. The school's founder, Nailakhanim Isayeva, opened the ceremony with a speech. She also gave the audience information about the new branch of Dunya School opening this year in Sumgayit.

Then speeches were made by Azay Guliyev, a pupil's parent and Member of Parliament; and Yahya Aliyev, Division Head at Binagadi District Executive Power. They congratulated the pupils and teachers and wished them success in the new school year.



# "Dünya" məktəbinin nəzdindəki bağçada məşğələlər başladı

Sentyabrın 15-də "Dünya" məktəbinin Məktəbəqədər təhsil bölümündə yeni tədris ilinin başlanması ilə əlaqədar tədbir keçirildi. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və "Dünya" məktəbinin təsisçisi Nailə xanım İsayeva, bağça rəhbərliyi, valideynlər və uşaqlar iştirak edirdilər.

Şən nəğmələr, rəngarəng rəqslər və gözəl çıxışlarla zəngin tədbirə balacaları təbrik etmək üçün müxtəlif nağıl personajları da gəlmişdilər.









# New Academic Year at Dunya Preschool

On September 15, an opening ceremony was held to mark the beginning of the 2016-2017 academic year in the preschool attached to Khazar University's affiliate Dunya School. Participants in the celebration included the founders of Khazar University and Dunya School, Professor Hamlet Isaxanli and Nailakhanim Isayeva, respectively; preschool teachers, parents, and children. The celebration included happy songs, colorful dances, and beautiful performances. Various fairy tale characters also came to greet the children.

# "Xəzər"in əməkdaşları beynəlxalq konfransda

Xəzər Universiteti Elektronika və telekommunikasiya departamentinin müdiri Nuru Səfərov və Neft-qaz mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalov avqustun 31-dən sentyabrın 1-dək Bakıda keçirilən "İdarəetmə elmi və mühəndislik idarə etməsi" mövzusunda X beynəlxalq konfransda iştirak etdilər.

Konfrans Elm və Mühəndislik İdarə etməsi Beynəlxalq Cəmiyyətinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Texniki Universitetinin və Çinin Siçuan Universitetinin təşkilatçılığı ilə keçirilirdi.

Konfransda bir sıra ölkələrin aparıcı alimlərinin idarəetmə elmi və onun tətbiqinə həsr edilmiş elmi məruzələri dinlənildi.

# Hamlet İsaxanlı özəl ali məktəblərə qəbul sayının azalmasının səbəblərini izah etdi

Sentyabrın 7-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı media nümayəndələrinin "tələbələrin özəl universitetləri seçməməsinin səbəbləri" ilə bağlı suallarını cavablandırmışdır.

H.İsaxanlının mediaya verdiyi cavabları bu linklər vasitəsilə oxumaq olar:

http://olaylar.az/news/sosial/190620;

http://kreditplaza.az/az/eco_az_news/t%C9%991%C9%99b%C9%991%C9%99r-niy%C9%99-bu-il-oz%C9%991-universitetl%C9%99rd%C9%99n-kutl%C9%99vi-imtina-etdil%C9%99r-rektorlardan-aciqlama/;

http://faktxeber.com/rektorlar-zl-universitetlrdn-ktlvi-imtinann-sbbini-aqladlar_h483513.html;

http://modern.az/az/news/111109.

# Müəllimimizə əməkdar artist fəxri adı verilmişdir

Azərbaycan Respublikası Prezidentinin 22 sentyabr 2016-cı il tarixli sərəncamı ilə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının üzvlərinə fəxri adlar verilmişdir. Təltif olunanalar arasında Xəzər Universitetinin müəllimi Telman Əliyev də vardır. O, əməkdar artist fəxri adına layiq görülmüşdür.

Müəllimizi təbrik edir, ona yeni uğurlar arzulayırıq.

# Tələbələr dərsi müzeydə keçdilər

Sentyabrın 27-də Xəzər Universitetinin Təhsil fakültəsinin birinci kurs tələbələri üçün "Arxeologiyaya giriş" fənninin növbəti dərsi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun müzey-sərgi zalında fənn müəllimi Orxan Zamanov tərəfindən ekskursiya şəklində tədris olundu.

Təcrübə dərsi universitetin Tarix və arxeologiya departamenti tərəfindən təşkil edilmişdi. Dərs tələbələrin böyük marağına səbəb oldu.

Ekskursiya zamanı Azərbaycanda aparılan son arxeoloji tədqiqatlardan və əhəmiyyətli elmi tapıntılardan bəhs olundu. Tələbələrə əsas və əhəmiyyətli arxeoloji mənbələr və abidələr haqqında əyani məlumat verildi.

## *Avrasiya Akademiyasının qurucu üzvü*

# Lütfi Zadəyə

## *Azərbaycan medalı təqdim olunub*





ABŞ-ın Kaliforniya ştatında yerləşən nüfuzlu Berkli Universitetində sentyabrın 7-də Azərbaycan əsilli amerikalı professor Lütfi Zadəyə həsr olunmuş geniş mərasim keçirilib. Azərbaycanın Los Ancelesdəki Baş konsulluğundan APA-ya verilən məlumata görə, mərasimdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) qərarı ilə Lütfi Zadənin təltif olunduğu Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl Medalı Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayev tərəfindən dünya şöhrətli alimə təqdim olunub.

Tədbirdə Berkli Universitetinin müəllim-tələbə kollektivi, alimin həmkarları, dostları və onun elmi-tədqiqat irsinin davamçıları iştirak edib. İlk çıxış üçün söz universitetin Mühəndislik Fakültəsinin dekanı, Lütfi Zadənin yetirməsi olan professor Şankar Sastriyə verilib. O, professor Lütfi Zadəni bu əlamətdar gün münasibətilə təbrik edərək, göstərilən diqqətə və belə bir nəcib təltifə görə təmsil etdiyi ali təhsil müəssisəsi adından Azərbaycan Respublikasına dərin minnətdarlığını ifadə edib.

Sonra professor Lütfi Zadənin vətəni Azərbaycana həsr olunmuş, onun sosial, iqtisadi və mədəni tərəqqisini nümayiş etdirən qısa film nümayiş etdirilib. Filmdən sonra söz Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayevə verilib. Diplomat bildirib ki, professor Lütfi Zadə öz elmi nailiyyətləri və dünya tərəqqisinə verdiyi töhfələri ilə sadəcə, Azərbaycan və ya ABŞ-ın deyil, bütün bəşəriyyətin dəyərli təmsilçilərindəndir. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həm azərbaycanlı soydaş, həm də dünya elminin dəyərli nümayəndəsi kimi daim professor Lütfi Zadəyə diqqət göstərdiyini, bu diqqətin nəticəsi kimi 2011-ci ildə qocaman alimin Dostluq Ordeni ilə təltif olunduğunu vurğulayıb.

Baş konsul, çıxışının sonunda AMEA-nın prezidenti akademik Akif Əlizadə tərəfindən mərasim münasibətilə professor Lütfi Zadəyə ünvanlanmış təbrik məktubunu oxuyaraq, Qızıl Medalı təntənəli surətdə dünya şöhrətli alimə təqdim edib.

Onu da qeyd edək ki, professor Lütfi Zadə Bakıda təsis olunmuş Avrasiya Akademiyasının beş qurucu üzvündən biridir. Bu münasibətlə daha öncə ona Avrasiya Akademiyasının digər qurucu üzvü professor Hamlet İsaxanlının iştirakı ilə "Avrasiya Əfsanəsi" kuboku təqdim edilmişdi.

Professor Lütfi Zadə mərasimdəki çıxışında Azərbaycandan kənarda yaşamasına baxmayaraq, Azərbaycanın daim onun qəlbində xüsusi yer tutduğunu bildirib. O, prezident İlham Əliyevin müdrik rəhbər və istedadlı dövlət xadimi olduğunu vurğulayaraq, ona dərin rəğbət bəslədiyini söyləyib. Alim bildirib ki, Azərbaycan bu gün nəinki öz regionunda, eləcə də, beynəlxalq aləmdə böyük nüfuza malikdir. Bunun isə hər şeydən öncə, Azərbaycan prezidenti tərəfindən həyata keçirilən düşünülmüş siyasətin və səbatlı dövlət kursunun nəticəsi olduğunu vurğulayıb. Lütfi Zadə AMEA-nın prezidenti A.Əlizadəyə belə bir medal ilə təltif olunmasına görə təşəkkürünü bildirib.

Tədbirdə professor Lütfi Zadə ilə uzun illər birgə çalışmış, onun elmi-tədqiqat işlərində yaxından iştirak etmiş Azərbaycan Texniki Universitetinin professoru Şahnaz Şahbazova və Berkli Universitetinin professoru Ceyms Demmel də çıxış ediblər.

Onlar öz nitqlərində dünya şöhrətli alimin elmi araşdırmalarından, bu səpkidə qeyri-səlis çoxluqlar və sistemlər, eləcə də, qeyri-səlis məntiq sahəsində elmə gətirdiyi inqilabi yeniliklərdən söz açıblar.

http://apa.az/xeber-az/sosial_xeberler/berkli-universitetinde-lutfi-zadeye-azerbaycan-medali-teqdim-olunub.html

# Xəzər Universitetinin tələbə yataqxanası istifadəyə verildi

Xəzər Universitetinin "Neftçilər" kampusunun yaxınlığında universitetin yataqxanası istifadəyə verilmişdir. Rahat yaşayış şəraiti olan yataqxana yerli və əcnəbi tələbələr, həmçinin qonaqlar üçün nəzərdə tutulmuşdur.

Yataqxana təhlükəsizlik kameraları ilə təchiz edilmiş və təhlükəsizlik işçiləri var, Wi-Fi-la təmin olunmuşdur



# Hamlet İsaxanlı Şəhriyara həsr olunmuş konfransda

Sentyabrın 14-də Azərbaycan Milli Elmlər Akademiyasında böyük Azərbaycan və İran şairi Məhəmmədhüseyn Şəhriyara həsr olunmuş konfrans keçirildi. Konfransda Azərbaycan və İran alimləri, o cümlədən, rəsmi şəxslər iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Şəhriyarın sənətkarlığı, Səməd Vurğunla M.Şəhriyarın yaradıcılığındakı bənzərliklər barədə çıxış etdi. Professor İsaxanlı tədbirdə öz şeirlərini də oxudu.

Konfrans haqqında "Palitra" qəzetinin rəsmi İnternet səhifəsində geniş yazı dərc olunmuşdur. Yazını tam şəkildə oxumaq üçün bu linkə daxil olmaq lazımdır:

http://palitranews.az/news.php?id=58237.

# 1-ci kurs tələbələri kitabxana ilə tanış oldular



Sentyabrın 15-də Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşı Səidə Orucova 1-ci kurs tələbələrinə "Kitabxana və kitabxana xidmətləri" mövzusunda təlim keçdi.

Sonra KİM-nin əməkdaşları tələbələri kitabxana ilə tanış etdilər.













# Hamlet İsaxanlı Şəhriyara həsr olunmuş beynəlxlq konfransda Şəhriyar mədəniyyət medalına layiq görüldü

Sentyabrın 17-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı İran İsalm Respublikasının Təbriz şəhərində böyük İran və Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyara həsr olunmuş beynəlxlq konfransda iştirak etdi. Konfransa Təbriz Universiteti ev sahibliyi edirdi.

Konfransda beş ölkə – İran İsalm Respublikası, Pakistan, Türkiyə, Azərbaycan və Gürcüstan təmsil olunurdu. İştirakçı ölkələrin görkəmli elm adamları sırasından altı nəfər 2016-cı ilin Şəhriyar Mədəniyyət Medalına layiq görüldü.

Azərbaycan Respublikasından Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin dekanı professor Vasim Məmmədəliyev Şəhriyar Mədəniyyət Medalına layiq görüldülər. Onlar öz çıxışlarında M.Şəhriyar haqqında fikirlərini konfrans iştirakçıları ilə bölüşdülər.

H. İsaxanlı bir qrup konfrans iştirakçısı ilə Şəhriyarın Təbrizdəki ev muzeyində oldu.



# Founder Receives Shahriyar Medal

On September 17, an international conference dedicated to great Iranian and Azerbaijani poet Mahammadhuseyn Shahriyar was held in the city of Tabriz in the Islamic Republic of Iran. The conference was hosted by the University of Tabriz.

Five countries were represented at the conference: the Islamic Republic of Iran, Pakistan, Turkey, Azerbaijan and Georgia. Six scholars from these countries were selected to receive the 2016 Shahriyar Medal.

Two scholars from the Azerbaijan Republic who received the medal were Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Professor Vasim Mammadaliyev, Dean of the School of Theology at Baku State University. They each made brief speeches about Shariyar.



Şəkildə (soldan sağa): Hamlet İsaxanlı, şəhriyarşünas-filoloq Esmira Şükürova (Fuad), ilahiyyatçı şərqşünas professor Vasim Məmmədəliyev, şair Əli Daşqın, Hadı (Şəhriyarın oğlu) və balaca Şəhriyarsevər. (Şəhriyarın ev muzeyində, Təbriz).

In the photograph (from left to right): Hamlet Isaxanli; Esmira Shukurova (Fuad), Eastern Studies Scholar; Professor Vasim Mammadaliyev, Theologian/Eastern Studies Scholar; Ali Dashgin, poet; Hadi, Shahriyar's son; and a young Shahriyar fan. Taken in Shahriyar's House Museum, Tabriz.



# Bolonya prosesi və Azərbaycan təhsili



*2016-cı il iyulun 22-də "Həftə içi" qəzetinin hafta.az veb səhifəsində "Bolonya prosesi və Azərbaycan təhsili" adlı analitik yazı yerləşdirilmişdir. Tanınmış təhsil ekspertləri – Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Azərbaycan Təhsil Şurasının sədri professor Əjdər Ağayev problemi şərh edirlər. Yazını oxuculara təqdim edirik.*



**Ekspertlərin fikrincə, bu istiqamətdə keyfiyyətli nəticələr əldə etmək üçün ali məktəblərə müstəqillik verilməlidir**

Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsil sistemində də müstəqil siyasət yürüdülməyə başladı. Belə ki, ölkəmizin Avropaya inteqrasiyası bu sahədə yeni islahatların aparılmasına təkan verdi. 2005-ci ildə isə Azərbaycan təhsili ilk dəfə olaraq Bolonya prosesi ilə tanış oldu. Artıq 11 ildir ki, ölkəmizin ali təhsil müəssisələrində bu sistem tətbiq olunur.

Xatırladaq ki, dünyanın istifadə etdiyi təhsil sistemlərindən biri olan Bolonya sisteminin tarixi o qədər qədim deyil. Prosesin rəsmi başlanğıcı 1999-cu il iyunun 19-u hesab olunur. Həmin tarixdə Bolonya şəhərində 29 Avropa ölkəsinin təhsil nazirlərinin xüsusi konfransında "Avropa ali təhsil məkanı" bəyannaməsi və ya Bolonya bəyannaməsi qəbul edilmişdir. Bolonya sistemi digər ölkələr üçün də açıqdır. Hazırda Bolonya sistemi 46 ölkəni özündə birləşdirir. Bu sistemin əsas məqsədi Avropa ali təhsil məkanı yaratmaq, eləcə də o sistemi dünya miqyasında fəallaşdırmaqdır.

Təhsil Nazirliyində hesab edirlər ki, ölkəmizin Bolonya prosesinə qoşulması, ali təhsilin Avropa təhsil məkanına inteqrasiyası, tələbə və müəllim kontingentinin vahid Avropa ali təhsil məkanına qoşulan ölkələr arasında mobilliyinin asanlaşdırılması, məşğulluq (işədüzəlmə) prosesinin asanlaşdırılması, diploma əlavənin vahid modelinin yaradılması ilə məzunların əmək bazarında fəaliyyətə başlamasının asanlaşdırılması, uzunömürlü təhsil almaq imkanlarının yaradılması (ali təhsil müəssisələrindən akademik uğursuzluğa görə xaric olunmanın aradan qaldırılması), hər bir tələbəyə fərdi yanaşma, hər bir müəllimin tədris etdiyi kursa (fənnə) sərbəst yanaşması, tələbələrə öz təhsil prosesini seçməkdə sərbəstliyin verilməsi (məs., müəllim və fənn seçimində sərbəstlik), yay semestri imkanlarından istifadə, tədrisi vaxtından əvvəl bitirmə, (bakalavriat səviyyəsində 3.5 il, magistratura səviyyəsində 1.5 il), diplomların ekvivalentliyi və qarşılıqlı tanınması üçün geniş imkanlar yaradır.

Mövzu ilə bağlı fikirlərini bildirən **Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı** deyib ki, çoxpilləli təhsil, kredit sistemi, təhsilin keyfiyyətinin qarşılıqlı qiymətləndirilməsi, tələbə, müəllim mobilliyi, diplomların qarşılıqlı tanınması Bolonya prosesinin əsas müddəalarıdır: "Azərbaycan 2005-ci ildə Bolonya prosesinə qoşuldu. Həmin dövrdə çoxları bu prosesin nədən ibarət olduğunu başa düşmürdü. Biz Xəzər Universitetində bir sıra ali təhsil müəssisələrinin dekanlarının seminarlarını təşkil etdik və proses haqqında geniş məlumat verdik. Bununla bağlı həmin dövrdə mətbuatda da bir sıra məqalələr yazdım və Bolonya prosesinin mahiyyətini açıqlamağa çalışdım. Prosesin tətbiqi zamanı bir çox çətinliklər baş verirdi. Geniş təbliğat aparılmasına baxmayaraq, bu proses Avropadakı kimi tam başa düşülmədi və bu gün də bununla bağlı müəyyən problemlər var. Ölkəmizdə bu prosesin tətbiqinin bizə verdiyi ən vacib amillərdən biri kredit sistemidir. Bu sistem demək olar ki, bütün ali təhsil müəssisələrində

tətbiq olunur. Xəzər Universiteti yarandığı gündən bu günə qədər kredit sistemini tətbiq edir. Çünki biz Amerika təhsil sistemini əsas götürmüşdük və düşünürdük ki, bu sistem gec-tez Avropada da öz təsdiqini tapacaq. Ancaq Bolonya prosesinin Azərbaycana bundan başqa elə bir xeyri olduğunu düşünmürəm. Buna səbəb respublikamızda bu prosesin də müəyyən qədər standartlaşdırılmasıdır. Qeyd edim ki, Bolonya prosesinə qoşulmuş ölkələrin qarşısına konkret şərtlər qoyulmur, sadəcə tövsiyələr edilir. Ümumiyyətlə, dünyanın bir çox ölkələrində universitetlərə sərbəstlik verilir. Həmin universitetlərdə dövlət tərəfindən təsdiq edilmiş xüsusi tədris planı olmur. Buna misal olaraq Amerikanı göstərmək olar. Amerikada universitetlərə nəzarət edən qurum belə yoxdur. Yəni, universitetlər tam sərbəstdirlər. Qəbulu da özləri aparır, diplomu da özləri verir".

Onun sözlərinə görə, Bolonya prosesinin əsas prinsiplərindən biri məhz keyfiyyətdir: "Bu keyfiyyəti almaq üçün isə universitetlərə muxtariyyət və sərbəstlik verilməli, standart tədris planı olmamalıdır: "Təsəvvür edək ki, kompüter elmləri ilə bağlı tez-tez yeniliklər baş verir və həmin yeniliklərin tədrisi ilə bağlı tədris planında heç nə nəzərdə tutulmur. Deməli, bu yeniliklər tələbəyə çatdırılmır və ya gec çatdırılır. Tədris planı dinamik olmalıdır. Bolonya prosesinin də ana prinsiplərindən biri standartlaşdırmadan uzaq durmaqdır. Prosesdə hər hansı bir dərsin müəyyən edilmiş krediti yoxdur. Lakin bu məqama bizdə bir o qədər də fikir verilmir. Buna görə də, bir çox çatışmazlıqlarımız var. Ona görə də düşünürəm ki, Bolonya prosesi Azərbaycanda kredit sisteminin tətbiqindən başqa tədrisin keyfiyyətinə təsir edəcək elə bir köklü dəyişiklik gətirməyib. Lakin Avropa universitetləri ilə tələbə mübadilələri, diplomların tanınması və sair kimi məsələlərdə müsbət mənada dəyişikliklər var. Düşünürəm ki, dünyada gedən elmi proseslərlə, yeniliklərlə yaxından tanış olmalıyıq. Ölkə olaraq elmi potensialımızı artırmalıyıq. Universitetlərimizdəki professor-müəllim heyəti yerində saymamalıdır. 15-20 il bundan qabaq tətbiq olunan tədris planları əsasında dərslər aparmamalı, yeniliklərə meyl etməlidirlər".

Məsələyə münasibət bildirən **Respublika Təhsil Şurasının sədri Əjdər Ağayev** isə deyib ki, Bolonya prosesinin əsas hədəflərindən biri kredit sistemi və biliyin çoxballı sistemlə qiymətləndirilməsidir. Onun fikrincə, bu sistem Bolonya bəyannaməsinin qəbul edildiyi tarixdən əvvəl də ABŞ başda olmaqla bir çox ölkələrdə tətbiq olunub: "Türkiyədə ilk dəfə 1957-58-ci tədris ilində Atatürk Universitetində tətbiqinə başlanan bu sistem 1981-ci ildən etibarən bütün ali məktəblərdə tətbiq edilib. Hətta 1994-1996-cı illərdə kredit sistemi ümumtəhsil məktəblərinə də şamil edilsə də, sonradan bu ideyadan imtina olunub. Nəhayət, Almaniyada ənənəvi kurs keçmə sisteminə əsasən fəaliyyət göstərən ali məktəblər də Bolonya prosesinə qoşulub. Ümumiyyətlə, Bolonya prosesinin tətbiqi təhsil sahəsində inteqrasiyanın sürətləndirilməsi ilə yanaşı Azərbaycanda verilmiş diplomların Avropa məkanında tanınması və qəbul edilməsi baxımından da önəmlidir. Digər tərəfdən, kredit sisteminin əsas məqsədlərindən biri müvəffəqiyyəti mükafatlandırmaq və qeyri-müvəffəq olma ehtimallarını minimuma endirməkdir. Sistem tələbənin fəallığının, praktik biliklərin və məşğələlərin, seçməli fənlərin, təcrübə saatlarının artırılmasına, tədqiqatçı vərdişlərinin əldə olunmasına təminat verir. Ən başlıcası isə, kredit sistemi həm tələbədən, həm də müəllimdən tədris prosesinə daha artıq məsuliyyətlə yanaşmağı tələb edir".

Kredit sisteminin praktik faydalarına gəlincə, ekspert bildirib ki, onun tətbiqi ilk növbədə Azərbaycan təhsilinin ümumavropa təhsil sisteminə inteqrasiyasına zəmin yaradır. Bu isə Azərbaycan təhsilinin cəlbediciliyini və rəqabət qabiliyyətini artırır: "Bu sistemin tətbiqi ali məktəblərə və tələbələrə universitetlərarası və ölkələrarası tələbə mübadiləsi aparmaq imkanı verir. Sistem həmçinin təhsildə demokratik prinsiplərin bərqərar olmasına, fənlərin sayının, müəllim və tələbənin nəzəri dərs yükünün həcminin azaldılmasına gətirib çıxarır. Sistem zəif tələbəyə də öz potensialından axıra qədər istifadə etmək üçün şərait yaradır. Tələbənin hər hansı subyektiv münasibətin, şəxsi-qərəzlik kimi amillərin qurbanı olması hallarının qarşısını alır. Hətta bir fəndən qeyri-müvəffəq qiymət almış tələbə uğurla başa vurduğu digər fənlər sayəsində kursda qalmaq, ali məktəbdən xaric olunmaq kimi sərt cəza tədbirləri ilə üzləşmir. Sadəcə o, akademik borcu olan fəndən kəsilmiş sayılır və əldə etdiyi digər nailiyyətləri öz qüvvəsində qalır".

**Sevinc**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

http://hafta.az/index2.php?m=yazi&id=182737

# Avrasiya Akademiyasının kitab-albomu çap olunub

Avrasiya Akademiyasının Azərbaycan və ingilis dillərində hazırlanmış "Avrasiya Akademiyası. Həqiqət və gözəllik eşqi" kitab-albomu iyul ayında Xəzər Universitetinin Nəşriyyatında nəfis tərtibatla çapdan çıxmışdır. Kitab-albom 4 əsas hissədən - "Tarixdə Akademiyalar", "Avrasiya Akademiyası. Həqiqət və gözəllik eşqi", "Avrasiya Akademiyasının mükafat və rəmzləri" və "Avrasiya Akademiyasının ictimaiyyətə təqdimat mərisimi"ndən ibarət olmaqla 118 səhifədən ibarətdir.

Kitab-albomun tərtibçisi Avrasiya Akademiyasının qurucu üzvü, Xəzər Universitəsinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, korrektoru Marta Lauri, titul vərəqinin dizayneri Afaq Kərimovadır. Kitab-albomun kompüter işi Zakir N. Yusifoğlu tərəfindən həyata keçirilmişdir. Kitab-albom Türkiyə və Azərbaycanda müvafiq qurumlara göndərilmişdir.




## Eurasian Academy Album Published

In July, the album for Eurasian Academy entitled "Love of Truth and Beauty" was published by Khazar University Press in Azerbaijani and English. This 118-page book consists of 4 main sections: Academies in History, Eurasian Academy: the Love of Truth and Beauty, Eurasian Academy's Awards and Symbols, and Ceremony to Present Eurasian Academy to the Public.

The author of the book is Prof. Hamlet Isaxanli, Founding Member of Eurasian Academy as well as founder of Khazar University and chairman of its Board of Directors and Trustees. It was edited by Martha Lawry. The title page was designed by Afag Karimova. The book was typeset and digitally prepared by Zakir N.Yusifoglu. The book was distributed to organizations of Turkey and Azerbaijan.

# Xəzər Universitetinin laboratoriyaları haqqında yeni kataloq

Xəzər Universitetinin Nəşriyyatında Azərbaycan və ingilis dillərində hazırlanmış "Texnoloji laboratoriya və mərkəzlər" kataloqu iyul ayında nəfis tərtibatla çapdan çıxmışdır. Kataloq 128 səhifədən ibarətdir. Kataloqun tərtibçisi Xəzər Universitəsinin İdarəetmə və Tələbə İşləri üzrə prorektoru İsaxan İsaxanlı, korrektoru Marta Lauri, dizayneri Sevinc Şəfiyevadır.

Kataloqda Xəzər Universitetində yerləşən zəngin laboratoriya və mərkəzlər haqqında geniş məlumat verilmişdir.




# Khazar University Laboratory Catalog Published

An elegantly designed catalog of Khazar University laboratories entitled "Technological Laboratories and Centers" was published by Khazar University Press in July. The catalog consists of 128 pages.

The author of the catalog is Prof. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs. The editor is Martha Lawry and the designer is Sevinj Shafiyeva. The catalog presents detailed information on the many laboratories and centers of Khazar University.

# Azərbaycan Təhsil Şurasının sədri Xəzər Universitetini nümunə göstərdi

İyulun 22-də *nezermedia.az* saytında "Biz "qırmızı" diplomlu, yoxsa savadlı olmaq istıyirik?" sərlövhəli analitik yazı verilmişdir. Yazıda ekspertlər təhsil problemləri ilə bağlı mülahizələrini bildirirlər. Azərbaycan Təhsil Şurasının sədri professor Əjdər Ağayev müxtəlif təhsil problemlərinə münasibətini bildirərkən, Xəzər Universitetini "dünyada seçilən" universitet adlandıraraq, nümunə göstərmişdir.

Yazını bu linkdə oxumaq olar:
http://nezermedia.az/cemiyyet/17188-biz-qirmizi-diplomlu-yoxsa-savadli-olmaq-ucun-oxuyuruq.html#Kalibri

# Hamlet İsaxanlı Beynəlxalq Konfransda

Avqustun 31-dən sentyabrın 1-nə kimi Beynəlxalq Menecmentşünaslıq və Mühəndislik Menecmenti Cəmiyyətinin (*International Society of Management Science and Engineering Management*) təşkilatçılığı ilə Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasında "Beynəlxalq Menecmentşünaslıq və Mühəndislik Menecmenti" adlı konfrans keçirildi.

Avqustun 31-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor H. İsaxanlı kofransın açılış mərasimində iştirak etdi.

Sentyabrın 1-də H. İsaxanlı konfransın panelində çıxış etdi, menecmentşünaslıq və mühəndislik menecmenti və onlarla bağlı Azərbaycanda, xüsusən də Xəzər Universitetində görülən işlər (tədris, araşdırma, praktik işlər, layihələr və s.) haqqında danışdı. O, həmçinin müzakirələrdə iştirak etdi.

Sentyabrın 2-də ***xalqxeber.az*** xəbər saytında kofrans haqqında geniş məlumat verilmişdir:
http://xalqxeber.az/sosial/370894-amea-da-dareetme-elmi-ve-muhendislik-idareetmesi-movzusunda-x-beynelxalq-konfrans-kechirilib.html.

# Founder at International Conference at Academy of Sciences

From August 31 to September 1, the International Society of Management Science and Engineering Management held the 10th International Conference on Management Science and Engineering Management at the Azerbaijan National Academy of Sciences. On August 31, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in the opening ceremony.

On September 1, H.Isaxanli made a presentation in the panel discussion during the conference at the Academy of Sciences. He spoke about the special role played by Khazar University in management science and engineering management in Azerbaijan, including training, research, practical works and projects. He also participated in related discussions.

On September 2, detailed information about the conference was published on the xalqxeber.az website:
http://xalqxeber.az/sosial/370894-amea-da-dareetme-elmi-ve-muhendislik-idareetmesi-movzusunda-x-beynelxalq-konfrans-kechirilib.html.

# Məzunumuzun böyük uğuru



Keçən tədris ilində Xəzər Universitinin bakalavr pilləsini fərqlənmə diplomu (yüksək fəxri diplom) ilə bitirmiş Afaq Əhmədova magistr təhsilini Fransada Eyfel proqramı (Eiffel Program) çərçivəsində davam etdirəcəkdir. Eyfel proqramı Fransa Xarici İşlər Nazirliyi tərəfindən təsis olunmuş və əla tədris göstəricilərinə malik olan ən yaxşı xarici tələbələrin Fransanın ən yüksək təhsil institutlarında magistr və PhD pillələrində təhsil almaları üçün nəzərdə tutulur.

Afaq Əhmədova Bakının Nərimanov rayonundakı 207 nömrəli tam orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra qəbul imtahanlarında 620 bal toplayaraq, Xəzər Universitetinin İqtisadiyyat və menecment fakultəsinə daxil olmuşdu. Oxuduğu müddət ərzində Erasmus Mundus proqramı çərçivəsində bir il İtaliyanın nüfuzlu təhsil ocağı olan Venesiyadakı Ka-Foskari Universitetində (Ca-Foscari University of Venice) təhsilini davam etdirmiş və yüksək göstəricilərə nail olmuşdur. Hal-hazırda o, Fransanın Klermont-Ferrand (Clermont-Ferrand) şəhərindəki Overn Universitetində (The University of Auvergne) magistr təhsilini davam etdirir.

Məzunumuzu bu münasibətlə ürəkdən təbrik edir və ona daha böyük uğurlar arzulayırıq.

# Great Accomplishment of Khazar Alumna

In the last academic year, Afag Ahmadova graduated from Khazar University's bachelor program with a High Honors. She has now enrolled in a master's degree program in France through the Eiffel Program, which was founded by the French Ministry of Foreign Affairs to create opportunities for excellent foreign students to earn master and PhD degrees in the top higher education institutions of France.

Afag Ahmadova graduated from high school number 207 in the Narimanov District of Baku with excellent grades. Then she scored 620 points on the central admission examination and enrolled in Khazar University's School of Economics and Management. During her time at Khazar, she spent one year abroad in Ca' Foscari University of Venice, a prestigious educational institution of Italy, through the Erasmus Mundus Program with high results. She is currently a master student at the University of Auvergne in Clermont-Ferrand, France.

We congratulate our alumna on this achievement and wish her further success in her academic career.

# İraqın Azərbaycandakı səfiri Xəzər Universitetində

Sentyabrın 27-də İraqın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Fadhil Awad Jebur al-Shuwai Xəzər Universitetində oldu, universitetin rektoru Hassan Niknafs və Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova ilə görüşdü.

Səfir İraq Təhsil və Elmi Tədqiqat Nazirliyinin Azərbaycan universitetlərinin diplomunun tanınması ilə bağlı son qərarı haqqında danışdı və Xəzər Universitetinin İraqda Azərbaycanın keyfiyyətli təhsil verən aparıcı universitetlərindən biri kimi tanındığını vurğuladı.

Sonra H. Niknafs Xəzər Universitetində mövcud olan proqramlar, onun resursları, laboratoriyaları, tədqiqat potensialı və başqa vacib akademik aspektlərdən danışdı. Rektor Xəzər Universitetinin yeni açılmış yataqxanası haqqında da məlumat verdi.

T. Cəfərova son zamanlarda Xəzər Universitetində oxumaq istəyən İraq vətəndaşlarının sayının nəzərə çarpacaq dərəcədə artdığını qeyd etdi.



Görüşdən sonra səfir Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Heydər Əliyev Fondu tərəfindən təşkil olunan səkkizinci Üzeyir Hacıbəyov Beynəlxalq Musiqi Festivalı çərçivəsində Xəzər Universitetinin Mərmər zalında keçirilən konsertdə iştirak etdi. Musiqiçiləri alqışlayan səfir dəvətə görə Xəzər Universiteti rəhbərliyinə öz minnətdarlığını bildirdi

# Ambassador of Iraq Visits Khazar University

On September 27, the Ambassador Extraordinary and Plenipotentiary of Iraq to the Azerbaijan Republic Dr. Fadhil Awad Jebur AL-Shuwai visited Khazar University to meet with the President, Dr. Hassan Niknafs and the Director of the International Affairs Office, Ms. Turan Jafarova.

The Ambassador spoke about the recent decision of the Ministry of Higher Education and Scientific Research of Iraq about the recognition of several universities in Azerbaijan. He stressed that Khazar University is known in Iraq as one of the leading universities in Azerbaijan providing high quality education.

Dr. Hassan Niknafs spoke about the programs offered at Khazar University, its resources, laboratories, research capacity and other important academic aspects. He also provided information about the dormitory of the university that was recently opened and invited the Ambassador to visit it. Ms. Turan Jafarova mentioned that the interest of Iraqi citizens in studying at Khazar had increased significantly.

After the meeting, the Ambassador participated in the concert program at the Marble Hall of Khazar University held within the VIII Uzeyir Hacibeyli International Music Festival organized by the Azerbaijan Republic Ministry of Culture and Tourism and Heydar Aliyev Foundation (September 18-27, 2016). The Ambassador commended the musicians and participants of the festival, and he expressed his deep appreciation and gratitude to the leadership of Khazar University for the invitation.

# Hamlet İsaxanlı Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvü təyin edilmişdir

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" 15 sentyabr 2016-cı il tarixli 346 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının səlahiyyət müddəti bitdiyinə görə onun yeni tərkibi təsdiq edilmişdir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da Şuranın üzvü təyin olunmuşdur. Şuranın sədri Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovdur.

Ölkənin rəsmi və digər xəbər agentlikləri və saytları Nazirlər Kabinetinin sərəncamı haqqında xəbərlər yaymışlar.

# Founder Appointed as Member of Statistics Committee's Statistics Board

On September 15, 2016, the Cabinet of Ministers passed an order number 346 entitled "On the Confirmation of the New Composition of the Statistics Board functioning under the State Statistics Committee of the Azerbaijan Republic" in order to announce the composition of a new board, as the previous board's term had expired. According to the new order, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was appointed as a member of the Board.

# "Khazar Journal of Humanities and Social Sciences" jurnalının yeni sayı çapdan çıxıb




Xəzər Universitetinin Nəşriyyatında "Khazar Journal of Humanities and Social Sciences" jurnalının ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") növbəti sayı (Vol 19, № 3, 2016) çapdan çıxmışdır.

Jurnalın bu sayında "Teodor Drayzerin "Kerri bacı" əsərində sosial-psixoloji faktorların təhlili", "Filippinin milli inkişafına təsir edən sülh quruculuğu təcrübəsi", "Məhəmməd Zidari Nəssəvinin yaradıcılığındakı önəmli məqamlar", "Zehni və inkişaf çətinliyi çəkən əngəlli uşaqların ailəsində mövcud ehtiyaclar", "Müəllimlərin hipotetik səviyyədə yaradıcılıq qabiliyyətlərinin araşdırılması", "Azərbaycan, türk, fars və ingilis dilində qrammatik oxşarlıqların araşdırılması", "Xudai Xidmətkar və Müstəqillik hərəkatlarında sosial-siyasi faktorların müqayisəsi" və s. mövzularda məqalələr dərc edilmişdir.

Jurnal ildə dörd dəfə ingilis dilində nəşr olunur. Jurnalın elektron versiyası ilə bu link vasitəsilə tanış olmaq olar:

http://jhss-khazar.org/.



# Xəzər Universitetində “Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu”nun məzunlarına sertifikat təqdim olundu

Xəzər Universitetində aprelin 2-də başlamış, sayca dördüncü olan “Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu” iyunun 30-da başa çatmışdı. Sentyabrın 30-da “Dünya” məktəbinin konfrans salonunda məzunlara sertifikatların təqdim olunması mərasimi keçirildi. Qeyd edək ki, kurs yeni qəbul edilmiş müdavimlərlə davam etməkdədir.

Kursun əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir. Bu məqsədlə həftədə 4 gün 16 saat olmaqla keçirilən dərslər 12 həftə davam etmişdir. Fənləri universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva (Təhsilin idarə edilməsi), Təhsil fakültəsinin dekanı Elza Səmədli (Kurikulumun tətbiqi və idarə olunması), Elektronika və telekommunikasiya departamentinin müdiri Nuru Səfərov (İnformasiya - kommunikasiya texnologiyaları), müəllimlər - Akif Əlizadə (Təhsil hüququ), Elxan Bəylərov (Psixometriya), Mələk Kərimova (Təhsil psixologiyası), Vüsal Məmmədrzayev (Statistika) və Aynur Məmmədrzayeva (Maliyyə) tədris etmişlər.

Təlimlər zamanı, həmçinin, layihə çərçivəsində universitetin Mərmər salonunda “Qonaq Mühazirəçilər Seminarları” fəaliyyət göstərmişdir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı “Təhsildə idarəetmə: nəzəriyyədən praktikaya”, ESFİDİP layihəsinin rəhbəri Rima Məmmədova "Əlilliyi olan tələbələrlə 360 dərəcə ünsiyyət" və Bakı Şəhər Təhsil İdarəsinin rəisi Məhəbbət Vəliyeva “Ümumtəhsil məktəblərini idarə edən təhsil rəhbərlərindən gözlənilən keyfiyyətlər və bacarıqlar” mövzularında seminar - müzakirələr keçirmişlər.

Kursun məşğələlərində iştirakçıların təqdimatları olmuş, müzakirələr aparılmış, çay süfrələri ətrafında söhbətlər keçirilmişdir. Onlar kursun çox əhəmiyyətli olduğunu, əldə etdikləri nəzəri və təcrübi bilikləri öz işlərində tətbiq edəcəklərini bildirmişlər.







Məzunlara sertifikatların təqdim olunması mərasimini H. İsaxanlı açaraq, geniş çıxış etdi. O, Xəzər Universitetində keçirilən kursun əhəmiyyətindən, məktəb rəhbərləri qarşısında duran vəzifələrdən danışdı. Kursun ilk məzunu, artıq iki il ərzində Bakının Binəqədi rayonundakı 283 saylı tam orta məktəbin direktoru işləyən Tünzalə Zeynalova mərasimdə çıxış edərək, məzunların karyerasında kursların mühüm rol oynadığını vurğuladı.

Sonra iki qrupda kursu bitirmiş 54 məzuna sertifikatların təqdim olunması mərasimi başlandı. Sertifikatları H. İsaxanlı, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, R. İsayeva, E. Səmədli, N. Səfərov və müəllimlər təqdim etdilər. Sertifikatlar təqdim olunandan sonra məzunlar and içdilər:

*"Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq qalacağıma, keyfiyyətli təhsil xidməti göstətəcəyimə, peşəkar fəaliyyət zamanı qeyri-etik davranışın hər hansı formasına yol verməyəcəyimə, həmkarlarım, təhsil alanlar, valideynlər və digər şəxslərlə münasibətləri hörmət, şərəf və ləyaqət əsasında quracağıma, müəllim adını və şərəfini uca tutacağıma and içirəm!"*

Kursun hər qrupunun keçdiyi yol haqqında universitetin Multimedia mərkəzində mərkəzin direktoru Natella Barkayanın rəhbərliyi ilə hazırlanmış slayd-şoular nümayiş etdirildi.

Kursu bitirənlər adından Sevda Alışova və Fərqanə Əliyeva çıxış edərək, layihə rəhbərləri R. İsayevaya, E. Səmədovaya və layihənin digər təşkilatçılarına minnətdarlıqlarını bildirdilər. Xatirə şəkilləri çəkildi.

Mərasim iştirakçılarına Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin, tələbələrdən ibarət "Yallı" rəqs ansamblının konserti təqdim olundu. Xəzər Universitetinin müəllimi, Opera və Balet Teatrının solisti, Əməkdar artist Fərid Əliyevin ifasında müxtəlif mahnılar səsləndi.



# Graduation Ceremony for Management Training Course for Potential School Directors at Khazar University



The fourth iteration of the Management Training Course for Potential School Directors at Khazar University began on April 2nd and ended on June 30th. On September 30th, a graduation ceremony was held to award certificates to participants who successfully completed the course. The fifth iteration of the course is now underway with new participants.

The main objective of the course is to increase the knowledge and skills of school directors and educational workers interested in working as school directors in the future in accordance with the new education strategy and the educational reforms of the country. Classes took place 4 days a week for 12 weeks with a total of 16 hours a week. Subjects were taught by Raziya Isayeva, the university's Development Center Director (Educational Administration); Elza Semedli, Dean of the School of Education (Curriculum Application and Management); Dr. Nuru Safarov, Head of the Department of Electronics, Telecommunications and Radio Engineering (Information/Communication Technologies); and Khazar University instructors Akif Alizade (Education Law), Elkhan Beylerov (Psychometrics), Melek Karimova (Education Psychology), Vusal Mammadrzayev (Statistics) and Aynur Mammadrzayeva (Finance).

During the course, a "Guest Lecture Seminar" series was held for participants in the university's Marble Hall. Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave a lecture on the topic of "Educational Administration: from Theory to Practice." Rima Mammadova, the project manager of ESFIDIP, spoke about "360 Degree Interaction with Students with Disabilities," and Mahabbat Valiyeva, Chair of the Baku City Board of Education, spoke about "Qualities and Skills that General School Directors are Expected to Have."

The course's classroom sessions included





stated that the course was very significant for them and that they had been able to apply theoretical and practical knowledge gained through the course.



H. Isaxanli opened the graduation ceremony with a speech about the significance of this course at Khazar University and the challenges remaining for school directors. Tunzala Zeynalova, a graduate of the first iteration of the course who has been working as the director of School no. 283 in the Binagadi District of Baku for two years, made a speech about the role this course played in her career.

Then certificates were awarded to the 54 graduates of the course in two groups. The certificates were handed out by H. Isaxanli; Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; R. Isayeva; E. Semedli; N. Safarov and participating instructors. After the certificates were presented, the graduates took a vow:

"I swear to uphold the laws and constitution of the Azerbaijan Republic as I remain faithful to traditions of Azerbaijani education; to provide quality education; never to allow unethical behavior in any way during the time of my professional service; to base my relationships with my colleagues, students, parents and others on respect, honor and dignity; and to preserve the name and the honor of the educational profession!"

Then the audience watched slide shows for each group of graduates that had been made under the leadership of Natella Barkaya, Director of the Multimedia Center, to show their progression through the course.

On behalf of the graduates, Sevda Alishova and Fargana Aliyeva made speeches to thank R. Isayeva, E. Semedova and the other course organizers. Group photos were taken.

Then a concert was performed under the leadership of Zulfiyya Sadigova, head of the Khazar University Department of Music and Fine Arts, including performances of the university's Chamber Orchestra and the Yalli Student Dance Ensemble. Meritorious Artist Farid Aliyev, Khazar University instructor and soloist of the Opera and Ballet Theater, also performed various songs.

## “XƏZƏR XƏBƏR”İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# Şəhriyarın 110 illiyinə həsr edilmiş elmi konfrans

**Sentyabrın 14-də AMEA-nın Dairəvi akt zalında Nizami adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə görkəmli şair Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 110 illiyinə həsr edilmiş “Məhəmmədhüseyn Şəhriyarın sənət dünyasının üfüqləri” mövzusunda elmi-praktik konfrans keçirilib.**

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq dahi söz ustadı Məhəmmədhüseyn Şəhriyarın həyat və yaradıcılığı haqqında ətraflı danışıb. Şəhriyarın Şərq dünyasının ədəbi-bədii fikrində özünəməxsus yaradıcılığı ilə böyük və şərəfli yer tutduğunu, onun ölməz irsinin dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisi olduğunu bildirən akademik İsa Həbibbəyli görkəmli şairin sənətkarlıq xüsusiyyətlərindəngeniş bəhs edərək,



M.Şəhriyarın zəngin ədəbi yaradıcılığından, XX əsr Şərq poeziyasının inkişafındakı rolundan, ədəbiyyata verdiyi töhfələrdən söz açıb.

Ümummilli lider Heydər Əliyevin Şəhriyar irsinə böyük rəğbət göstərdiyini qeyd edən akademik İsa Həbibbəyli ulu öndərin şairin 90 illiyində imzaladığı sərəncamın ona dövlət səviyyəsində ehtiramının göstəricisi olduğunu bildirib. Böyük öndərimiz Heydər Əliyevin müsahibələrinin birində “Sevdiyiniz şair?” sualına – “Şəhriyar”, - deyə cavab verdiyini xatırladan İsa Həbibbəyli Şəhriyar poeziyasını insanlara sevdirən, onu populyarlaşdıran, dillər əzbəri edən səbəbin ilk növbədə, onun şerinin fikir zənginliyi, bədii saflığı və səmimiyyəti olduğunu söyləyib.

İran İslam Respublikanın Azərbaycandakı səfiri Möhsün Pakayin XX əsrin böyük şairi Şəhriyarın Azərbaycan-İran poeziyasının və mədəniyyətinin inkişafında oynadığı müstəsna

roldan söz açıb.

İran Mədəniyyət Mərkəzinin sədri, doktor İbrahim İbrahimi çıxışında bildirib ki, M.Şəhriyar özünəməxsus yaradıcılıq üslubu, rəvan dili, sadə və yaddaqalan ifadələri ilə dünya ədəbiyyatının inkişafına böyük töhfələr verib. Onu XX əsr Azərbaycan poeziyasının nəhəngləri sırasına ucaldan ilk növbədə ölməz "Heydərbabaya salam" poeması olub. AMEA Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva, Təbriz Universitetinin rektoru, professor Məhəmmədrza Purməhəmmədi, akademik Vasim Məmmədəliyev, Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Ərdəbil Universitetinin professoru Doktor Qazidehi, Təbriz Universiteti nəzdində Azərbaycanşünaslıq Mərkəzinin sədri, doktor Əhməd Farşfab, Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Esmira Fuad, Şərqşünaslıq İnstitutunun əməkdaşı Məsiağa Məhəmmədi böyük şairin çoxşaxəli yaradıcılığını əhatə edən məruzələrlə çıxış ediblər. Tədbir çərçivəsində Nizami adına Ədəbiyyat İnstitutu ilə Təbriz Universiteti arasında qarşılıqlı elmi əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqaviləni Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli və Təbriz Universitetinin rektoru, professor Məhəmmədrza Purməhəmmədi imzalayıblar.



Beynəlxalq konfransın sonunda Məhəmmədhüseyn Şəhriyarın həyat yolunu əks etdirən film göstərilib.

Tədbir boyu ustad şairin həyat və yardıcılığının müxtəlif dövrlərini əks etdirən slaydlar nümayiş olunub.

Beynəlxalq tədbirdə Azərbaycanın elmi və ədəbi ictimaiyyəti ilə yanaşı, xarici qonaqlar və media nümayəndələri də iştirak ediblər.

# Akademik İsa Həbibbəylinin məqaləsi Özbəkistan qəzetində




Özbəkistan Respublikasında çıxan "Kitab dünyası" qəzetinin 27 iyul 2016-cı il tarixli nömrəsində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Dünya ədəbiyyatı üçün əhəmiyyətli iş" adlı məqaləsi çap olunmuşdur. Qəzetin 1 və 2-ci səhifələrində "Ədəbiyyat dostluğu - əbədi dostluq" rubrikası ilə çap etdiyi bu geniş həcmli məqalədə Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixi ənənələrindən, böyük örnəklərindən geniş bəhs edilir. Eyni zamanda, məqalə müəllifi Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan əlaqələri" şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvinin ədəbiyyatlarımız arasındakı əlaqələrimizin inkişaf yolunun, ayrı-ayrı görkəmli ədəbi şəxsiyyətlərinin araşdırılıb öyrənilməsi, Azərbaycanda çap edilib yayılması sahəsindəki səmərəli fəaliyyətindən də söz açır. Məqalədə, həmçinin, Almaz Ülvinin Nizami adına Ədəbiyyat İnstitutunun 2016-cı ildə nəşr etdirdiyi "Özbək ədəbiyyatı" da qardaş ölkənin ədəbi-elmi ictimaiyyətinə və oxucularına təqdim olunur.

Məqalədə Azərbaycan-özbək ədəbi əlaqələrinin çoxəsrlik tarixi olduğu kimi, müstəqillik illərində də geniş imkanlar qazandığı və yeni tarixi mərhələdə daha sanballı tədqiqat əsərlərinin yazılmasına ciddi ehtiyac olduğu nəzərə çatdırılır.

Məqaləni özbək dilinə Obid Şofiyev tərcümə etmişdir.




## *Görkəmli ədəbiyyatşünas alimin beşcildliyi çap olunub*

AMEA-nın müxbir üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, görkəmli ədəbiyyatşünas alim, professor Yaşar Qarayevin 80 illik yubileyinin keçirilməsi haqqında AMEA Rəyasət Heyətinin qərarına əsasən Nizami adına Ədəbiyyat İnstitutu alimin "Seçilmiş əsərləri"nin 5 cildliyini və "Yaşar Qarayev: yaxından və uzaqdan" adlı məqalələr və xatirələr toplusunu kitab halında nəşr edib. "Seçilmiş əsərləri"n elmi redaktoru Nizami adına Ədəbiyyat İnstitutunun "XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, professor Şirindil Alışanlı, tərtibçiləri isə professor Şirindil Alışanlı və dosent Aygün Bağırovadır. Məqalələr və xatirələr kitabını da onlar tərtib etmişlər.

"Yaşar Qarayev: yaxından və uzaqdan" məcmuəsinin elmi redaktoru və ön sözün müəllifi AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir. Akademikin kitaba yazdığı "Görkəmli tənqidçinin portreti" adlı müqəddimədə deyilir: "Bu gün ötən XX əsrin ədəbi-elmi nəsillərini təhlildən keçirməli olsaq, Yaşar Qarayev elmdə mərkəzi fiqur olmaqla yanaşı, həm də keyfiyyət dəyişmələrinin əsas barometrlərindən biri kimi fikrimizə gələr. Yaşar Qarayev ustad müəllimləri – Əli Sultanlı, Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərovla çoxsaylı yetirmələri olan yeni nəsil elmlər doktorları və namizədləri arasında etibarlı elmi-ədəbi və mənəvi körpüdür. Yaşar Qarayev müəllimlərinin istedadlı, görkəmli xələfi, davamçısı, xələflərinin isə böyük müəllimidir. Sələf-xələf münasibətlərindəki varislik, bütövlük, əhatəlilik, tamlıq və yaşarılıq milli ədəbiyyatşünaslıq elmimizdə Yaşar Qarayev məktəbini ortaya çıxarır".

# Nobel mükafatçısı ilə görüş



Sentyabrın 28-də AMEA Nizami adına Ədəbiyyat İnstitutunda ədəbiyyat üzrə Nobel mükafatçısı, nigeriyalı yazıçı Vole Soyinka ilə görüş keçirilib.

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli görüşdə Vole Soyinkanın mübarizələrdə keçən həyatı və azadlıq eşqilə dolu yaradıcılığı haqqında ətraflı danışıb. Vole Soyinkanın təkcə ilk Nobel mükafatı alan Afrika yazıçısı deyil, ingilis dilində yaranan yeni ədəbiyyatın görkəmli nümayəndəsi olduğunu qeyd edən akademik İsa Həbibbəyli görkəmli yazıçının yaradıcılığının spesifik xüsusiyyətlərindən danışıb. Akademik İsa Həbibbəyli Nobel mükafatçısının əsərlərində Afrikada milli azadlıq hərəkatının dolğun ifadə olunduğunu bildirərək, yazıçının həyatı, əsərləri, yaradıcılıq istiqamətləri barədə geniş və əhatəli söhbət açıb.

Sonra akademik İsa Həbibbəyli nigeriyalı yazıçı Vole Soyinkaya xatirə hədiyyələri təqdim edib.

Nobel mükafatı laureatı Vole Soyinka çıxış edərək ədəbiyyat aləmində ilk qələm təcrübələri, eləcə də Afrika ədəbiyyatının özəllikləri, milli azadlıq hərəkatı dövrü və ondan sonrakı ədəbiyyat barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Səhifələrində Vole Soyinkadan da bəhs edilən "Ədəbi Nobel antologiyası" əsərinin müəllifi Nadir Əbdülrəhmanlı, institutun elmi əməkdaşı Şükufə Əliyeva çıxış edərək nigeriyalı yazıçının bədii əsərləri və yaradıcılığı barədə danışıblar.

Yazıçı görüş iştirakçılarının onun yaradıcılığına maraq ifadə edən suallarını cavablandırıb.

Sonda Nizami adına Ədəbiyyat İnstitutuna dəvət olunduğu, ona ədəbiyyatşünas alimlərlə görüşmək imkanı yaratdığı üçün Vole Soyinka akademik İsa Həbibbəyliyə xüsusi minnətdarlığını bildirib.

# Əməkdaşımız beynəlxalq tədbirdə



İyunun 22-dən 26-dək Xəzər Universitetinin əməkdaşı Rima Məmmədova (Layihə koordinatoru) İstanbul şəhərində Kadir Has Universitetinin təşkil etdiyi "VI Beynəlxalq Qonşuluq Simpoziumu"nda iştirak etdi. Tədbirdə müxtəlif ölkələrin universitet və qeyri-hökümət təşkilatlarının nümayəndələri iştirak edirdilər.

Simpoziumda Yaxın Şərqdə baş verən hadisələr və bu hadisələrdə Rusiya, Türkiyə və NATO-nun rolu və regionla bağlı digər məsələlər müzakirə olundu. Rima Məmmədova iştirakçılara Xəzər Universiteti və onun beynəlxalq əlaqələri haqqında məlumat verdi.



TIME

# Is Homework Good for Kids? Here's What the Research Says



**Katie Reilly**
**Aug. 30, 2016**

*As kids return to school, debate is heating up once again over how they should spend their time after they leave the classroom for the day.*

*The no-homework policy of a second-grade teacher in Texas went viral last week, earning praise from parents across the country who lament the heavy workload often assigned to young students. Brandy Young told parents she would not formally assign any homework this year, asking students instead to eat dinner with their families, play outside and go to bed early.*

*But the question of how much work children should be doing outside of school remains controversial, and plenty of parents take issue with no-homework policies, worried their kids are losing a potential academic advantage. Here's what you need to know:*

The issue

For decades, the homework standard has been a "10-minute rule," which recommends a daily maximum of 10 minutes of homework per grade level. Second graders, for example, should do about 20 minutes of homework each night. High school seniors should complete about two hours of homework each night. The National PTA and the National Education Association both support that guideline.

But some schools have begun to give their youngest students a break. A Massachusetts elementary school has announced a no-homework pilot program for the coming school year, lengthening the school day by two hours to provide more in-class instruction. "We really want kids to go home at 4 o'clock, tired. We want their brain to be tired," Kelly Elementary School Principal Jackie Glasheen said in an interview with a local TV station. "We want them to enjoy their families. We want them to go to soccer practice or football practice, and we want them to go to bed. And that's it."

A New York City public elementary school implemented a similar policy last year, eliminating traditional homework assignments in favor of family time. The change was quickly met with outrage from some parents, though it earned support from other education leaders.

New solutions and approaches to

homework differ by community, and these local debates are complicated by the fact that even education experts disagree about what's best for kids.

**The research**

The most comprehensive research on homework to date comes from a 2006 meta-analysis by Duke University psychology professor Harris Cooper, who found evidence of a positive correlation between homework and student achievement, meaning students who did homework performed better in school. The correlation was stronger for older students—in seventh through 12th grade—than for those in younger grades, for whom there was a weak relationship between homework and performance.

Cooper's analysis focused on how homework impacts academic achievement—test scores, for example. His report noted that homework is also thought to improve study habits, attitudes toward school, self-discipline, inquisitiveness and independent problem solving skills. On the other hand, some studies he examined showed that homework can cause physical and emotional fatigue, fuel negative attitudes about learning and limit leisure time for children. At the end of his analysis, Cooper recommended further study of such potential effects of homework.

Despite the weak correlation between homework and performance for young children, Cooper argues that a small amount of homework is useful for all students. Second-graders should not be doing two hours of homework each night, he said, but they also shouldn't be doing no homework.

**The debate**

Not all education experts agree entirely with Cooper's assessment.

Cathy Vatterott, an education professor at the University of Missouri-St. Louis, supports the "10-minute rule" as a maximum, but she thinks there is not sufficient proof that homework is helpful for students in elementary school.

"Correlation is not causation," she said. "Does homework cause achievement, or do high achievers do more homework?"

Vatterott, the author of Rethinking Homework: Best Practices That Support Diverse Needs, thinks there should be more emphasis on improving the quality of homework tasks, and she supports efforts to eliminate homework for younger kids.

"I have no concerns about students not starting homework until fourth grade or fifth grade," she said, noting that while the debate over homework will undoubtedly continue, she has noticed a trend toward limiting, if not eliminating, homework in elementary school.

The issue has been debated for decades. A TIME cover in 1999 read: "Too much homework! How it's hurting our kids, and what parents should do about it." The accompanying story noted that the launch of Sputnik in 1957 led to a push for better math and science education in the U.S. The ensuing pressure to be competitive on a global scale, plus the increasingly demanding college admissions process, fueled the practice of assigning homework.

"The complaints are cyclical, and we're in the part of the cycle now where the concern is for too much," Cooper said. "You can go back to the 1970s, when you'll find there were concerns that there was too little, when we were concerned about our global competitiveness."

Cooper acknowledged that some students really are bringing home too much homework, and their parents are right to be concerned.

"A good way to think about homework is the way you think about medications or dietary supplements," he said. "If you take too little, they'll have no effect. If you take too much, they can kill you. If you take the right amount, you'll get better."

http://time.com/4466390/homework-debate-research/

AZƏRBAYCAN MÜƏLLİMİ

TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR !
*Heydər ƏLİYEV*

# "Azərbaycan müəllimi" qəzetində QS reytinqinə səhifə həsr olunub

Xəzər Universiteti və ölkə mediasında xəbər verildiyi kimi, QS təşkilatı tərəfindən Avropa və Mərkəzi Asiyanın inkişaf etməkdə olan 21 ölkəsinin ən yaxşı universitetlərinin 2016-cı il iyunun 14-də müəyyənləşdirilmiş reytinq cədvəlində Xəzər Universiteti 68-ci yeri tutaraq, Azərbaycanın ən yaxşı ali məktəbi seçilməklə yanaşı, bölgənin ilk 70 ali təhsil müəssisəsi arasında yer almış yeganə Azərbaycan universitetidir. Reytinqə qatılan digər Azərbaycan universitetlərindən – Bakı Dövlət Universiteti 88-ci, Qafqaz Universiteti 89-cu yerdə, Azərbaycan Dillər Universiteti 121-130-cu, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti və ADA Universiteti isə 150-200-cü yerlər arasında qərarlaşıb.

Azərbaycan Təhsil Nazirliyinin orqanı - "Azərbaycan müəllimi" qəzeti 25 iyun 2016-cı il tarixli nömrəsində bu hadisəyə bütün bir səhifə həsr etmişdir. Səhifənin müəllifi redaksiyanın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Oruc Mustafayevdir. Səhifədə onun məqaləsi ilə yanaşı, 100-dək olan reytinq siyahısı da verilmişdir.

# In the newspaper "Azerbaijan Teacher" a page is devoted to QS University rankings

As stated in the university and local media, QS University rankings organized annual ranking of the best universities in Emerging Europe and Central Asia (EECA) for 2016. Khazar University was ranked the 68th, selected as the best university in Azerbaijan, as well as being chosen as the only university from Azerbailan among the 70 higher education institutions in the region.
Other universities from Azerbaijan took the following places: Baku State University - 88th place; Qafqaz University - 89th place; University of Languages- 121-130th place; State Economic University of Azerbaijan 150-200th place and; ADA University 150-200th place.
The body of the Ministry of Education of Azerbaijan - "Azerbaijan teacher" newspaper, dated June 25, 2016, dedicated a whole page to this event. The author of the page is Oruj Mustafayev, head of International Relations Department of Editorial Office. In addition to his article, a rating list of 100 universities also appeared on the page.

# Estoniyalı mühazirəçi EMBER layihəsi çərçivəsində Xəzər Universitetində mübadilə proqramını tamamladı

Erasmus Mundus proqramının EMBER layihəsi çərçivəsində estoniyalı mühazirəçi Marye Mets cari ilin yaz semestrində Xəzər Universitetində qonaq oldu.

Marye Mets Tallin Texnologiya Universitetinin tabeliyində olan Estoniya Dəniz Akademiyasında mühazirəçidir. O, idarəetmə psixologiyası, ümumi idarəetmə, ünsiyyət, etika və etiket (əxlaq nəzəriyyəsi və davranış normaları) kimi fənləri tədris edir. Marje Tallin Universitetində Təşkilati davranış ixtisası üzrə magistr dərəcəsi almışdır.

Xəzər Universitetində Marye Mets İqtisadiyyat və menecment fakültəsinin bakalavr tələbələrinə İnsan resurslarının idarə olunması fənnini keçib. O, həmçinin, beynəlxalq tələbə və müəllimlərin adaptasiyası ilə bağlı tədqiqat da aparıb.

EMBER layihəsi Qərb/Mərkəzi/Şərqi Avropa və Cənubi Qafqazdan olan iyirmi tərəfdaş və dörd əlaqədar tərəfdaş ali təhsil müəssisələrindən ibarət konsorsiumdur. Layihə iqtisadiyyat, biznes, dillər və sosiologiya sahələrini əhatə edir. Xəzər Universitetində EMBER layihəsi Beynəlxalq əlaqələr şöbəsi tərəfindən idarə olunur.



# Visiting Instructor from Estonia Completes Mobility at Khazar University within EMBER project

In Spring semester of the current academic year, Khazar University hosted Ms. Marje Mets, a visiting lecturer from Estonia, within the framework of the Erasmus Mundus EMBER project.

Ms. Marje Mets is a lecturer at Estonian Maritime Academy that is a part of the Tallinn University of Technology. The subjects she teaches include Management Psychology, General Management, Communication Studies, and Ethics and Etiquette. Marje holds a master's degree in Organizational Behavior from Tallinn University. During her mobility at Khazar University, Ms. Mets taught Human Resource Management to bachelor students at the School of Economics and Management. She also conducted a research about adaptation process of international students and instructors.

The EMBER project is a consortium that is comprised of twenty partner higher education institutions and four associated partners from Western/Central/Eastern Europe and South Caucasus. The focus of the project are the fields of economics, business, languages, and sociology. The International Affairs Office coordinates EMBER project at Khazar University.





# Litva və Latviya səfirləri NDU-da

Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas və Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovs Naxçıvan Muxtar Respublikasına rəsmi səfərləri çərçivəsində sentyabrın 9-da NDU-da da olublar. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonaqları salamlayaraq, muxtar respubikada təhsilin inkişaf göstəricilərindən danışıb, universitetin strukturu, maddi-texniki bazası, professor-müəllim heyəti, mövcud fakültə və ixtisaslar haqqında ətraflı məlumat verib.

Səfirlər ilk olaraq Elmi kitabxana, elektron kataloq-kartoteka sistemi, elektron kataloq köşkü və İnternet mərkəzinin fəaliyyəti ilə tanış olublar. Media mərkəzində yaradılan rəqəmsal multimedia infrastrukturu, Universitet Televiziyasında videodərslərin xüsusi proqram vasitəsilə "HD" formatda çəkilib yaddaşa yazılması, universitetin internet portalındakı elektron mühazirə bölməsində yerləşdirilməsi prosesi, universitet televiziyası və "Nuhçıxan" radiosunun fəaliyyəti Pribaltika ölkələri diplomatik nümayəndələrinin marağına səbəb olub. Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas Universitet televiziyasına müsahibə verib.

Səfirlər NDU-da müasir tədris üsullarının, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsini yüksək dəyərləndirərək, iki ölkə arasında elm, təhsil sahəsində əməkdaşlığın əhəmiyyətindən bəhs ediblər. Görüşdə müxtəlif ixtisas sahələri üzrə universitetlərarası əlaqələrin inkişafı ilə bağlı təkliflər müzakirə olunub.



# Universitetdə Bilik Günü



15 sentyabr Bilik günü ölkəmizin bütün təhsil ocaqlarında olduğu kimi, Naxçıvan Dövlət Universitetində də hər il bayram əhval-ruhiyyəsi ilə qeyd olunur. Bu münasibətlə keçirilən tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə açaraq, müəllim və tələbələrin yeni tədris ilini təbrik edib, onlara uğurlar diləyib. Rektor qeyd edb ki, ali təhsil almaq üçün Naxçıvan Dövlət Universitetini seçən yüksək bal toplayan abituriyentlərin, xarici ölkə vətəndaşlarının sayı ildən - ilə artmaqdadır. Yeni tədris ilindən 1068 bakalavr, 114 magistr bu ali məktəbdə təhsil alanlar sırasına qoşulur.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid "Kredit sisteminin tələbləri" mövzusunda məruzə edərək xatırladıb ki, Bolonya prosesi 2009-cu ildən etibarən Naxçıvan Dövlət Universitetində uğurla tətbiq olunur. Məruzədə tədris prosesinin kredit sistemi əsasında təşkilinin ümumi müddəaları, əsas səciyyəvi xüsusiyyətləri və digər məsələlər barədə məlumat verilib.

Tədbirdə birinci kurs tələbələri adından 600-dən yuxarı balla Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasına qəbul olunan Nərmin Ağayeva, Qəndab Zeynalova və Sona Əliyeva çıxış edərək, ölkədə təhsilə yaradılan yüksək şəraitə, hərtərəfli dövlət qayğısına görə minnətdarlıq ediblər. Bildiriblər ki, onlara göstərilən yüksək etimadı təhsildə qazanacaqları uğurlarla doğruldacaqlar.

Sonra 600-dən yuxarı balla universitetə qəbul olunan tələbələrə tələbə bileti və "Naxçıvan Ensiklopediyası" təqdim olunub.

Tədbir universitetin tarixi inkişaf yolunu əks etdirən filmin nümayişi ilə başa çatıb.



# "Xəzər"də neft - qaz sahəsində elmi-tədqiqat layihəsi yerinə yetiriləcək

Xəzər Universiteti Neft və qaz mühəndisliyi departamentinin "EILINK" elmi tədqiqat və inkişaf mərkəzi tərəfindən BP şirkətinin sifarişi əsasında "Azəri-Çıraq-Günəşli yataqlarının analoqu olan yataqlar və yerüstü geoloji kəsilişlər üzrə struktur deformasiyaya məruz qalmış ərazilərin kollektor süxurlarının xassələrinin və məhsuldarlığının qiymətləndirilməsi" mövzusunda elmi-tədqiqat layihəsinin yerinə yetirilməsi BP-Azərbaycan, Gürcüstan və Türkiyə regional şirkəti tərəfindən iyunun 22-də rəsmi olaraq təsdiq edilmişdir. Layihənin 9 ay müddətində yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Layihə Azəri-Çıraq-Günəşli yataqlarının analoqu olan Abşeron neftli-qazlı rayonunun Yasamal dərəsi, Şubanı, Şabandağ, Atəşgah, Lökbatan, Puta-Quşxana, Şonqar və Korgöz-Qızıltəpə sahələrinin yerüstü geoloji kəsilişlərində geoloji planlama və çöl tədqiqat işləri nəticəsində məhsuldar qatın çökmə şəraitinin, onların laylanma formalarının və həmçinin, həmin strukturların dik yamaclı tağ hissələrində deformasiyaya məruz qalmış suxurların kollektor xüsusiyyətlərinin öyrənilməsi ilə əlaqədar keçiriciliyin və məsaməliyin ölçülməsi işlərinin və həmin işlərin nəticələrinin quyu karotajı, kerna, seysmik kəşfiyyat, quyuların sınanma və hasilat məlumatları ilə inteqrasiyası əsasında Günəşli yatağının dərin sulu hissəsinin məhsuldarlığının qiymətləndirilməsinə həsr olunmuşdur. Layihə Neft və qaz mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalovun rəhbərliyi və icrası ilə və departamentin doktorantı Şəhriyar Alxaslının icrası ilə yerinə yetiriləcək. Bu layihənin yerinə yetirilməsində Xəzər Universiteti ilə "Azərbaycan Neft Mühəndisləri" İctimai Birliyinin birgə əməkdaşlığı nəzərdə tutulur.

# The research project will be implemented in the field of exploration and production of oil and gas fields

On 22 June, the grant project of the "EILINK" Scientific Research and Development Center in Petroleum Engineering Department at Khazar University, on the basis of BP Caspian company order, on the topic "Evaluation of the rock properties and productivity of the structurally deformed areas based on outcrop and field analogues in Azerbaijan" was officially approved by BP Azerbaijan, Georgia and the regional company of Turkey. The total duration of the project is considered to be nine months. The project is dedicated to field studies of geological survey of the outcrops of the Productive Series and evaluation of their depositional environments, bedding forms, measurements of porosity and permeability for studying their reservoir properties in structurally deformed rocks in steeply dipping limb areas in analogue fields of Azeri-Gunship-Chirag fields such as the Yasamal Valley (Shubany, Ateshgah, Shabandag), Lokbatan, Puta-Kushkhana, Korgez-Kiziltepe and Shongar fields outcrops. The gained findings will be applied to the well logs and cores, seismic exploration, well testing and production data will be used for evaluation productivity of the Deep Water Guneshli field. The project will be carried out by supervising and execution of Associate Professor Gasham Zeynalov, head of Petroleum Engineering department and by execution of Shahriyar Alkhasli, a PhD student at Khazar University.

The project is intended to be carried out by the collaboration of Khazar University and Society of petroleum Engineers of Azerbaijan.

# Əməkdaşımız beynəlxalq konfransda məruzə etmişdir

Xəzər Universitetinin dissertantı (İngilis dili və ədəbiyyatı departamentinin Alt proqramlar üzrə koordinatoru) Milana Abasova avqustun 22-dən 30-dək Bolqarıstanda keçirilmiş Sosial elmlər üzrə III Beynəlxalq Multidisiplinar Elmi konfransda "Sosial şəbəkələrin Azərbaycandakı tələbələrin ingilis dili səriştəsinə təsiri" adlı məruzə ilə çıxış etmişdir. M. Abasova avqustun 28-də – konfransın 5-ci günündə keçirilən iclasın səhər sessiyasına sədrlik etmiş, ən yaxşı təqdimat və tədqiqat işinə görə "Büllur lövhəcik" və sertifikatla mükafatlandırılmışdır.

# Khazar English Department Member in International Conference

Milana Abasova, Khazar University PhD student and Minor Program Coordinator of the English Language and Literature Department, participated in the SGEM International Multidisciplinary Conference on Social Sciences & Arts held on August 22-30, in Bulgaria, Albena with her article entitled "**The Impact of Social Networks on Students' English Language in Azerbaijan.**" Milana Abasova chaired the morning session of the conference held on August 28 and was awarded with a crystal plaque and certificate for the best presentation and research.










# "Dünya" məktəbində elmi-metodiki məclis keçirildi



Sentyabrın 16-da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində yeni dərs ilinin başlanması münasibətilə elmi-metodiki məclis keçirildi. Məktəb rəhbərliyinin və müəllim kollektivinin iştirak etdiyi iclasda yeni dərs ilində ilboyu görüləcək işlər, layihələr, həyata keçirilməsi nəzərdə tutulan planlar müzakirə olundu.



# Dahi sənətkara həsr olunmuş tədbir



Sentyabrın 18-də "Dünya" məktəbində dahi bəstəkar, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin anadan olmasının ildönümü münasibətilə tədbir keçirildi. Tədbir iştirakçılarına Üzeyir sənəti haqqında məlumat verildi, sənədli film nümayiş etdirildi.

Qeyd olundu ki, "Dünya" məktəbində Üzeyir Hacıbəyliyə həsr olunmuş tədbirlər silsiləsi hər il ənənvi olaraq davam edir: bəstəkarın əsərlərindən parçalar dinlənilir, müəllim və şagirdlər dahi sənətkarın xatirəsini anır, haqqında söhbət açılır, siniflər qrup şəklində bəstəkarın ev muzeyində olurlar.

***

Sentyabrın 23-də "Dünya" məktəbinin şagird və müəllim kollektivi Üzeyir Hacıbəylinin anadan olmasının ildönümü münasibətilə dahi bəstəkarın ev muzeyində oldu. Kollektiv, həmçinin, səhifələrində Üzeyir Hacıbəyli haqqında məlumat verilmiş "Dünya" dərgisinin nüsxələrini muzeyə hədiyyə etdi.



ERASMUS+

2014 - 2020 programme for Education, Training, Youth, and Sport

# Xəzər Universitetinin daha bir layihəsi ERASMUS + proqramının qrantını qazanmışdır

ERASMUS + Key Action 2 – ali təhsildə bacarıqların inkişafı sahəsində layihələrin dəyərləndirilməsi nəticəsində Xəzər Universiteti qrant qazanmış 147 Universitet sırasına daxil edilmişdir. Qrantı Azərbaycan Universitetlərində Öyrənmə və Təlimin Təkmilləşdirilməsi adlı layihə qazanmışdır. Azərbaycandan və Avropadan 14 tərəfdaşı olan layihənin əsas məqsədləri öyrənmə və təlim prosesinin pedaqoji və texnoloji ehtiyaclarını ödəmək üçün insan kapitalının inkişaf etdirilməsi və innovativ texnologiya, tədqiqatın, fəal öyrənmənin və Avropa universitetləri ilə uzunmüddətli münasibətlərin qurulması vasitəsilə keyfiyyətli öyrənmə və təlimin inkişaf etdirilməsi və təmin edilməsidir.

Üç illik layihə Azərbaycandan 9 (Xəzər Universiteti – layihə koordinatoru, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Qafqaz Universiteti, Azərbaycan Dövlət Pedagoji Universiteti, Azərbaycan Universiteti, Azərbaycan Respublikası Təhsil Nazirliyi) və Avropadan 5 (Jyvaskala Universiteti - Finlandiya, Mərkəzi Avropa Universiteti - Macarıstan, Valensiya Universiteti - İspaniya, Vyana Tətbiqi Elmlər Universiteti - Avstriya, Qazi Universiteti - Türkiyə) tərəfdaşın yaxın iştirakı ilə tərtib olunmuş və 908 min 623 avro məbləğində qrantı qazanmışdır. Layihənin birbaşa benefisiarları PhD tələbələr, tədqiqatçılar, professor-müəllim heyətidir.

Əlavə məlumatı aşağıdakı internet səhifəsindən əldə edə bilərsiniz: https://eacea.ec.europa.eu/sites/eacea-site/files/cbhe_2016_results_by_region.pdf

# Khazar University is ERASMUS + Grant Holder again

Khazar University is a grant holder of the ERASMUS Plus Key Action 2 - Capacity Building in Higher Education. The project on Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities (PETRA) involves 14 partners from Azerbaijan and Europe with the aim to promote teaching and learning excellence in Azerbaijan. Specific objectives are (1) Building Capacity for Developing Teaching and Learning Process to meet pedagogical and technological needs and (2) Improving and Providing Quality Teaching and Learning through innovative technology, promoting research, improving active learning, and establishing long-term partnerships with European universities.

The three-year project is designed and developed with close participation of 9 (Khazar University – coordinator, Nakchivan State University, Ganja State University, Sumgayit State University, Baku Slavic University, Qafqaz University, Azerbaijan State Pedagogical University, Azerbaijan University, Ministry of Education of Azerbaijan Republic) partners from Azerbaijan and 5 (University of Jyvaskala - Finland, Central European University - Hungary, University of Valencia - Spain, University of Applied Sciences bfi Vienna - Austria, Gazi University - Turkey) partners from Europe and it has been granted 908.623,00 Euros.

The project's direct beneficiaries are PhD students, researchers and other members of academic staff.

For more info you can visit following link: https://eacea.ec.europa.eu/sites/eacea-site/files/cbhe_2016_results_by_region.pdf





# Xəzər Universiteti *Üzeyir Hacıbəyli* Beynəlxalq Musiqi Festivalında

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə sentyabrın 18-27 - də keçirilən VIII Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində sentyabrın 18-də bəstəkarın ev muzeyində ədəbi-musiqili tədbir oldu. Tədbiri muzeyin direktoru, bəstəkar Sərdar Fərəcov açaraq, dahi bəstəkarın həyat və yaradıcılığından, ənənəvi olaraq hər il keçirilən beynəlxalq festivalın əhəmiyyətindən danışdı. Sonra tədqiqatçı-publisist Aslan Kənanın "Qürbətdən gələn səslər" kitabının təqdimatı keçirildi, tədqiqatçıların məruzələri dinlənildi və musiqi proqramı təqdim olundu.



Musiqi proqramında Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu, dosent Zülfiyyə Sadıqova və universitetin Kamera orlestrinin konsertmeysteri Nəsrin Rzayeva iştirak etdilər.

Sentyabrın 23-də Üzeyir Hacıbəylinin ev muzeyində növbəti tədbir keçirildi. Tədbiri muzeyin direktoru, Əməkdar incəsənət xadimi, bəstəkar Sərdar Fərəcov açaraq, dahi bəstəkarın həyat və fəaliyyəti haqqında geniş məlumat verdi. Xəzər universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı görkəmli musiqiçinin çoxşaxəli yaradıcılığından, əsərləri əsasında çəkilmiş filmlərdən danışdı, onların 80-dən çox ölkədə nümayiş olunduğunu bildirdi.

Çıxışlardan sonra Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqova və Bratislava Musiqi Akademiyasının doktorantı, skripkaçı Fərhad Aşumov Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən fraqmentlər ifa etdilər.

Sentyabrın 26-da festival çərçivəsində Kanera və orqan musiqisi zalında keçirilmiş konsertdə də Zülfiyyə Sadıqova və Fərhad Aşumov iştirak etmişlər.

# Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı "Xəzər"də

VIII Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində sentyabrın 27-də Xəzər Universitetinin Mərmər salonunda universitetin Kamera orkestri, Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqova və skripkaçı Fərhad Aşumovun iştirakı ilə iki hissədən ibarət konsert oldu. Konsertdə universitetin rəhbərliyi, müəllim və tələbələri, qonaqlar iştirak edirdilər.

Konsertdən əvvəl Xəzər Universitetinin prorektoru İsaxan İsaxanlı çıxış edərək, iştirakçıları salamladı, Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığından, hər il keçirilən musiqi festivalının əhəmiyyətindən, Xəzər Universitetinin festivalda fəal iştirakından danışdı.







Sonra Kamera orkestri koncert proqramı ilə çıxış etdi. Fasilədə Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Üzeyir Hacıbıylinin ev muzeyinin direktoru, Əməkdar incəsənət xadimi bəstəkar Sərdar Fərəcov çıxış edərək, Xəzər Universitetində Kamera orkestrinin yaradılmasının Azərbaycanın təhsil mühitində əlamətdar bir hadisə olduğunu vurğuladı, orkestrin peşəkarlığını yüksək qiymətləndirdi, Üzeyir Hacıbəylinin anadan olmasının ildönümü münasibətilə hər il keçirilən beynəlxalq müsiqi festivalında fəal iştiraka görə universitetin rəhbərliyinə və musiqiçi əməkdaşlarına təşəkkürünü bildirdi.

Konsertin ikinci hissəsində Zülfiyyə Sadıqova və Fərhad Aşumov fortepiano ilə skripka üçün əsərləri ifa etdilər. Konsertin hər iki hissəsində Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndi.

Sonda İ. İsaxanlı konsert iştirakçılarına təşəkkürünü bildirdi, Fərhad Aşumova hədiyyə və gül dəstəsi təqdim etdi.

Konsertdə Xəzər Universitetinin rektoru Hassan Nuknafs və İraqın Azərbaycandakı səfiri Fadhil Awad Jebur Al-Shuwai iştirak edirdilər.







# Tarix və arxeologiya departamentində seminar



Sentyabrın 8-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentində "Hərbi döyüşdə qələbə və məğlubiyyəti təmin edən amillər: tarix və müasirlik" mövzusunda seminar keçirildi. Seminarı departamentin müdiri Roza Arazova aparırdı. Seminarda Milli Azərbaycan Tarixi Muzeyinin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri Səbuhi Əhmədov, departamentin müəllimi Orxan Zamanov, Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin (AQŞAM) direktoru, tarixçi-şərqşünas Fərda Əsədov və departament müdirinin assistenti Akifə Cəfərli çıxış etdilər.

Seminarda hərbi döyüş və müharibələrə təsirləri olan və nəticələrini müəyyən edən amillər müzakirə olundu. Müharibənin qələbə və məğlubiyyətlə bitməsinə onların sistemli şəkildə birləşdirilimiş təsirlərinin önəmli olması qeyd edildi. Zaman keçdikcə qələbəyə təsiri olan amillər münasibətinin müəyyən dərəcədə dəyişməsi, köçəri və oturaq həyat tərzi keçirən xalqlarda bu münasibətlərin müxtəlif olması bildirildi.

Qarabağda bu ilin aprelindəki hərbi əməliyyatlar və strategiya yenilikləri tarixin dərsləri işığında müzakirə edildi.

# Milli Qəhrəman M.İbrahimov adına Biləsuvar Təhsil Kompleksinin yüksək bal toplayan 4 məzunu Xəzər Universitetini seçdi



Milli Qəhrəmanı Mübariz İbrahimovun adını daşıyan Biləsuvar Təhsil Kompleksinin bu il məzun olan 24 nəfər şagirdindən ən yüksək bal toplayan 4 nəfəri - Aqşin Kazımlı, Ümid Nəzərov, Əyyub Əlizadə və Məhəmməd Məmmədli (şəkildə ardıcıllıqla) Xəzər Universitetinə (Kompüter mühəndisliyi ixtisası) daxil olmuşlar.

Qeyd edək ki, Biləsuvar Təhsil Kompleksinin cari ildə məzun olan 24 şagirdi də ənənəyə sadiq qalaraq, ötən illərdə olduğu kimi, bu il də respublikanın nüfuzlu ali məktəblərinə 100%-lik nəticə ilə qəbul olunublar. Təhsil Kompleksinin builki buraxılışı üzrə 24 şagirdindən 15-i (62,5 %) 600-dən yuxarı bal toplamışdır.

Bu barədə daha geniş məlumatı http://palitranews.az/news.php?id=57071#

# Əməkdaşımızın məqaləsi "Musiqi Dünyası" jurnalında




Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, dosent Zülfiyyə Sadıqovanın "Sərdar Fərəcovun fortepiano prelüdləri" adlı məqaləsi beynəlxalq elmi-pedaqoji, tənqidi-publisistik, mədəni-maarif musiqi dərgisi olan "Musiqi Dünyası" jurnalının (təsisçilər: Azərbaycan Bəstəkarlar İttifaqı, Bakı Musiqi Akademiyası, "Koroğlu - T" firması) 2016-cı il 1/66 sayında dərc olunmuşdur.

Məqalədə bəstəkar, Əməkdar incəsənət xadimi Sərdar Fərəcovun fortepiano prelüdlərinin təhlilinə həsr olunmuşdur.

## Xəzər Univeritetinin AQŞAM Araşdırma Mərkəzinin direktoru Koreyada beynəlxalq jurnalın məsləhətçilər surasının üzvü təyin edilmişdir

Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin (AQŞAM) direktoru Fərda Əsədov Cənubi Koreyanın Keymyung Universitetinin yeni nəşrə başlayan "İpək Yolu və Mərkəzi Asiya araşdırmaları" (Acta Via Serica) jurnalının beynəlxalq məsləhətçilər şurasının üzvü təyin edilmişdir.

Jurnal ildə iki dəfə ingilis dilində nəşr ediləcək və onun ilk buraxılışı 2016 ilin sonunda gözlənilir. Jurnalın veb səhifəsində əlavə məlumat əldə etmək olar:
http://censcakmu.org/sub03/sub03_n1.php .

## Director of CEMES research of the Khazar University appointed to the international Advisory Board of a journal in South Korea.

Director of the Center for Eurasia and Middle East Studies of the Khazar University has been appointed a member of International Advisory Board of the Journal of Silk Road and Central Asia Studies at Keymyung University, South Korea.

The journal will be published biannually and the first issue is to be released by the end of year 2016. More information about the journal is available on the journal website http://censcakmu.org/sub03/sub03_n1.php

# Xəzər Universitetinin müəllimi təhsilini təqaüd proqramı ilə Avstraliyada davam etdirəcək






Xəzər Universitetinin Kimya mühəndisliyi və Neft mühəndisliyi departamentlərinin müəllimi Mohammad Mehdi Zarei Avstraliyanın Nyukasl Universitetində təhsilini davam etdirmək üçün tam təqaüd proqramı qazanmışdır.

Meehdi Zarei kimya mühəndisliyi üzrə magistr dərəcəsini İranın Sistan və Bəlucistan universitetində almışdır. 2014-cü ilin aprelində Xəzər Universitetində fəaliyyətə başlamazdan əvvəl İranın iki universitetində – İslam Azad və Mərdəvşt universitetlərində üç il çalışmışdır. Xəzər Universitetində çalışdığı müddətdə bakalavr səviyyəsi üzrə kimya mühəndisliyi, istiliköturmə, kütlə transferi, termodinamika və modelləmə və simulyasiya fənlərini tədris etmişdir.

Mehdi Zareinin tədqiqat maraqlarını təşkil edən sahələr sırasına kimya proseslərinin modelləşdirilməsi, suyun təmizlənməsi və rezervuar simulyasiyası daxildir. Xəzər Universitetində çalışdığı vaxtda bir neçə laboratoriyanın qurucularından biri olmuşdur. Neft və kimya eksperimental tədqiqat laboratoriyası, Xəzər Tədqiqat Hesablama Mərkəzi və Modelləşdirmə və simulyasiya laboratoriyalarını misal göstərmək olar. Mehdi Zarei, həmçinin, Kimya mühəndisliyi departamentinin yaradılmasında da yaxından iştirak etmişdir.

Mehdi Zarei bir sıra beynəlxalq elmi tədbirlərin iştirakçısı olmuşdur. Ötən il Neft Mühəndisliyi Cəmiyyətinin illik Xəzər Texniki konfrans və sərgisində (Bakı, 4-6 noyabr, 2015-ci il) və Kimya Mühəndisliyi Amerika İnstitutunun illik konfransında (Solt Leyk siti, 8-13 noyabr, 2015-ci il) iştirak etmişdir.

Mehdi Zarei kimya və neft mühəndisliyi eksperimental tədqiqat labaratoriyası sahəsində təqiqatını daha da dərinləşdirmək üçün doktorluq üzrə tədqiqat aparmaq qərarına gəldikdən sonra Nyukasl Universitetindən təqaüd qazanmışdır.

Doktorluq dərəcəsini qazandıqdan sonra Mehdi Zarei Xəzər Universitetində başladığı işləri davam etdirməyi və tədqiqatını genişləndirməyi planlaşdırır.

# Khazar University Instructor to Continue his Education in Australia on Full Scholarship

Mohammad Mehdi Zarei, a lecturer and researcher at the Department of Chemical and Petroleum Engineering of Khazar University, received a full scholarship to continue his education at the University of Newcastle in Australia.

Mohammad Mehdi Zarei holds a master's degree in Chemical Engineering from the University of Sistan and Baluchestan (Iran). Before joining Khazar University in April of 2014, Mr. Zarei worked for three years as a lecturer in two Iranian Universities: Islamic Azad University of Science and Research of Fras and Marvdasht University. As a lecturer at Khazar University, he taught the following courses to undergraduate engineering students: Introduction to Chemical Engineering, Heat Transfer, Mass Transfer, Thermodynamics, and Reservoir Simulation.

Mohammad Mehdi Zarei's research interests include chemical process modeling, water treatment, and reservoir simulation. During his time at Khazar University, Mohammad Mehdi Zarei co-founded several laboratories including Chemical and Petroleum Experimental Research Laboratory, Khazar Computational Research Centre, Modeling and Simulation Research Laboratory. He also participated in the establishment of the Chemical Engineering Department.

Mohammad Mehdi Zarei's international experience includes participation in various conferences, the most recent being the Society of Petroleum Engineering (SPE) Annual Caspian Technical Conference & Exhibition (November 4-6, 2015, Baku, Azerbaijan) and the AIChE Annual Meeting (November 8-13, 2015, Salt Lake City, Utah, USA).

In order to further his knowledge and research at the Chemical and Petroleum Experimental Research Laboratory, Mehdi Zarei decided to pursue a PhD degree. He received a full scholarship from the University of Newcastle in Australia. Upon completion of his PhD study, Mehdi intends to continue the work he started at Khazar University and expand his research.



# Fakültə Şurasının iclası

Sentyabrın 2-də Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Elza Səmədova departamentlərin nümayəndələrinin iştirakı ilə iclas keçirdi. İclasda dekan müavinləri Zərifə Əliyeva və Aygün Verdiyeva, Bioloji elmlər departamentinin müdiri İradə Xəlilova, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Elektronika, telekommunikasiya və radio mühəndisliyi departamentinin müdiri Nuru Səfərov, Riyaziyyat departamentinin müdiri Əli Hüseynli iştirak edirdilər.

İclasda yeni tədris ilinin proqramları, dərs yükü, sillabuslar, müəllimlərin peşəkarlıq səviyyəsini artırmaq üçün təşkil olunacaq təlimlər və müəllimlərin etik davranışları, birinci kurs tələbələrinin universitetlə tanışlığı kimi məsələlərin ətraflı müzakirəsi keçirildi.

# ESFIDIP Tempus layihəsi çərçivəsində görüş

Sentyabrın 9-da Xəzər Universitetinin koordinator olduğu ESFIDIP (Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması) Tempus layihəsi çərçivəsində yerli tərəfdaşlar (Xəzər Universiteti, Sumqayıt Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Əlil Təşkilatları İttifaqı) arasında Skype vasitəsilə görüş təşkil olundu.

Görüş zamanı layihə çərçivəsində görüləcək işlər – pilot proqramının planlaşdırılması və həyata keçirilməsi, maliyyə məsələləri və layihənin davamlılığı üçün lazımi tədbirlərin təşkil olunması haqqında müzakirələr keçirildi.

# Meeting for ESFIDIP Project

On September 9, a Skype meeting was held for Azerbaijani partners of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project, of which Khazar University is coordinator. Partners participating in the meeting included Khazar University, Sumgayit State University, Lankaran State University, Nakhchivan State University, Azerbaijan State Economics University and Union of Organizations for Disabled People. Topics discussed in the meeting included upcoming plans for the project such as the planning and implementation of a pilot program, financial issues, and measures to be taken for the sustainability of the project.

# Məhəmməd Əmin Rəsulzadənin "Əsərləri (mühacirət dövrü: Türkiyə, 1922-1929)" kitabı çapdan çıxmışdır

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə elmlər doktoru Nəsiman Yaqublunun nəşrə hazırladığı Məhəmməd Əmin Rəsulzadənin "Əsərləri (mühacirət dövrü: Türkiyə, 1922-1929)" kitabı (I cild) Bakıda çapdan çıxmışdır. Kitaba ön sözün müəllifi, lüğət və izahların tərtibçisi də N. Yaqubludur.

Oxuculara təqdim olunan bu kitabda müəllifin 1920-ci illərdə yazdığı əsərlər toplanmışdır. Kitabda Azərbaycanın tarixi, müstəqillik mübarizəsi, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti haqqında geniş məlumatlar vardır. Eyni zamanda, müəllif bu əsərlərində sovet rejiminin işğalçı mahiyyətini, xalqları əsarətdə saxlayan, onları azadlıqdan məhrum edən siyasətini kəskin tənqid edir.

Kitabın məsləhətçiləri "Azərbaycan Kültür Dərnəyi"nin başqanı Cəmil Ünal və Egey Universitetinin professoru Yavuz Akpınar (Türkiyə), transliterasiya redaktoru Samir Xalidoğludur.

Kitab "Ziya" NPM-də nəşrə hazırlanmış, "OL" npkt-nin mətbəəsində çap olunmuşdur.




# Tarix və arxeologiya departamentində 1-ci kurs tələbələri ilə görüş

Sentyabrın 15-də Xəzər Universiteti Tarix və arxeologiya departamentində 1-ci kurs tələbələri ilə görüş təşkil olundu. Görüşdə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, müəllimlər Təranə İsayeva və Orxan Zamanov, departament müdirinin assistenti Akifə Cəfərli, yuxarı kurs tələbələri və məzunlar iştirak edirdilər. R. Arazova çıxış edərək, tələbələrə Xəzər Universitetinin hansı çətinliklərlə yaradıldığı, bu günə kimi hansı uğurlara nail olduğu haqqında danışdı, onlara uğurlar arzuladı.

T. İsayeva və O. Zamanov tələbələrə öz xoş arzularını bildirdikdən sonra onlara tələbə biletlərini tədqim etdilər. Yuxarı kurs tələbələri və məzunlar da öz ürək sözlərini və məsləhətlərini davamçılarına söylədilər.

Tələbələrə departamentin təşkil etdiyi seminarlar, görüşlər, müzeylərə və rayonlara səyahətlərdən ibarət videoçarx göstərildi.

Sonda A. Cəfərli qısa bir ekskursiya ilə tələbələri universitetlə tanış etdi.

# Əməkdaşımızın məqalələri "Ahilik" ensiklopediyasında

Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyinin nəşriyyatında 2016-cı ildə çap edilmiş iki cildlik "Ahilik" ensiklopediyasında Xəzər Universiteti Dillər və mədəniyyətlər kafedrasının dosenti Zivər Hüseynlinin on yeddi adda məqaləsi verilmişdir.

Orta əsrlərdə Azərbaycan, Anadolu və İranda fəaliyyətdə olmuş sənətkarlardan ibarət "Əxilik" ictimai təşkilatına aid sənət növləri və sənətkarlar haqqında ədəbiyyatda "Futüvvət-namə" və ya "Risalə" adlı nəzm və nəsr əsərlərindən ibarət yazı nümunələri mövcuddur. Z. Hüseynli fars dilində yazılmış futüvvətnamə və risalə nümunələrini araşdırmış və məqalələrini ensiklopediyaya təqdim etmişdir.




# Əməkdaşımızın hazırladığı proqrama qrif verildi

Xəzər Universiteti Dillər və mədəniyyətlər kafedrasının dosenti Zivər Hüseynlinin "Əski Azərbaycan yazısı" proqramına Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən nəşr hüququ (qrif) verilmişdir.

Zivər Hüseynlinin "050101 – Azərbaycan dili müəllimliyi" ixtisası üçün hazırladığı "Əski Azərbaycan yazısı" adlı fənn proqramı 2016-cı il iyunun 4-də keçirilən Xəzər Universiteti Elmi Şurası tərəfindən qəbul edilmiş və nəşr hüququ verilməsi üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinə təqdim edilmişdi.

2016-cı il avqustun 3-də həmin proqrama nəşr hüququ (qrif) verilməsi haqqında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən əmr verilmişdir.

# INSTRUCTOR OF KHAZAR UNIVERSITY RECEIVES A SCHOLARSHIP TO STUDY IN USA



Taher Chegini, an instructor at the Department of Civil Engineering of Khazar University, received a full scholarship to continue his professional development in the USA.

Taher Chegini earned his bachelor's degree in Civil Engineering (University of Razi) and his master's in Hydraulic Engineering (K. N. Toosi University of Technology) in Iran. His main academic interest is in Computational Fluid Dynamics (CFD) and its many applications, specifically in climate change studies. He started working at Khazar University in February of 2014 where he taught several courses including Fluid Mechanics, Strength of Materials, and Engineering Mechanics to undergraduate engineering students. As the manager of the Civil Engineering Laboratory, Taher Chegini employed laboratory activities in his courses to help students experience hands-on learning.Chegini was offered 13 licenses of Realflow software, an industry standard 3D visual effects package, worth $26,000 free of charge by the Next Limit Tech. company and started teaching an introductory course on 3D graphic design. Other than this software, Chegini also taught MATLAB for computational methods and SAP2000 for structural design to civil and petroleum engineering students. Moreover, he established a research group in the newly established Khazar Computation Research Center (KCRC) to conduct computational studies.

Taher Chegini was also the initiator of the so-called Spaghetti Bridge Competition. The competition aims at teaching students practical skills and requires that they construct a bridge which can sustain a load by using a specific quantity of materials. The first National Spaghetti Bridge Competition was held in Azerbaijan at Khazar University on May 5, 2015. Participants included students of Khazar University as well as students from other universities across Baku.

In order to further his knowledge and advance his research group at KCRC, Taher decided to pursue a PhD degree. He received a full scholarship from the University of Houston, Texas, USA. He will study flood control systems by means of experimental and numerical studies for his PhD thesis. Upon completion of his PhD study, Taher intends to continue the work he started at Khazar University and expand his research.

We congratulate our instructor with this achievement and wish him success!

# Dissertasiya işinin ilkin müzakirəsi keçirildi

Sentyabrın 19-da Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsi İngilis dili və ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyatı departamentləri ilə birlikdə doktorant Nərminə Fətəliyevanın "Sinonimlik problemi: müasir ingilis dilində sinonim seçimini tənzimləyən linqvistik və ekstralinqvistik amillər" (rus dilində, elmi rəhbər - Azərbaycan Dillər Universitetinin professoru, filologiya üzrə elmlər doktoru Nigar Vəliyeva) adlı dissertasiya işinin ilkin müzakirəsini keçirdi. Müzakirədə universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyev, fəlsəfə doktorları - Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Reyhan Mədətova, Azərbaycan Dillər Universitetinin İngilis dilinin leksikologiyası kafedrasının müdiri Amil Cəfərov, Azərbaycan Dillər Universitetinin əməkdaşları. Fəridə Allahverdiyeva və İradə Nuriyeva, Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşları iştirak edirdilər.

Doktorant Nərminə Fətəliyeva öz təqdimatında müasir cəmiyyətdə evfemizlərin əsas funksiyaları, evfemizm seçimini tənzimləyən sosial və koqnitiv faktorlar kimi məsələlərə toxunaraq, iştirakçıları dissertasiyanın əsas nəticələri ilə tanış etdi, sualları cavablandırdı.

Müzakirələr nəticəsində dissertasiya işinin müdafiəyə buraxılması tövsiyə olundu.






# Preliminary Doctoral Defense Held

On September 19, Khazar University's Division of Graduate Students and Research, the Department of English Language and Literature, and the Department of Azerbaijani Language and Literature held the primary defense for Narmina Fataliyeva's doctoral dissertation (in Russian; academic advisor: Professor Nigar Valiyeva of Azerbaijan University of Languages) on "The Problem of Synonymy: Linguistic and Extralinguistic Factors Regulating the Selection of English Synonyms." Participants in the defense included Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research; Dr. Reyhan Madatova, instructor for the Department of Azerbaijani Language and Literature; Dr. Amil Jafarov, Head of the English Lexicology Department of Azerbaijan University of Languages; Dr. Farida Allahverdiyeva and Dr. Irada Nuriyeva, Instructors from Azerbaijan University of Languages; and instructors from Khazar University Department of English Language and Literature. Doctoral candidate Narmina Fataliyeva made a presentation mentioning the key functions of euphemisms in a modern society as well as social and cognitive factors that regulate the choice of euphemisms and shared the major conclusions of her work. The doctoral candidate answered the panel's questions after the presentation.

The panel held a discussion after the preliminary defense and made a decision to recommend that the candidate proceed to a final defense.

# Neft-qaz mühəndisliyi departamentinin əməkdaşları beynəlxalq konfransda




Sentyabrın 26-dan 29-na kimi Xəzər Universitetinin Neft-qaz mühəndisliyi departamentinin müdiri, "eiLink" Tədqiqat və İnkişaf Mərkəzinin direktoru Qəşəm Zeynalov və departamentin müəllimləri Şəhriyar Alxaslı, İzat Şahsenov və Elşən Rzayev Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsinin nümayəndə heyətinin üzvləri kimi Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində keçirlən Beynəlxalq Neft Mühəndisləri Cəmiyyətinin İllik Texniki Konfransında və Sərgisində (*SPE Annual Technical Conference and Exhibition*) iştirak etmişlər.

Tədbirdə aparıcı neft və qaz şirkətlərinin və eləcə də bu istiqamətdə aparıcı rol oynayan universitetlərin neft-qaz yataqlarının işlənməsi və istismarı üzrə əldə etdiyi yeni texnologiyalara həsr edilmiş texniki məruzələrin və sərgilərin təqdimatı keçirilmişdir. Konfrans və sərgi çərçivəsində Qəşəm Zeynalov Nyu Meksiko Texniki İnstitutu, Aberdin Universiteti və Kral Abdulla Elm və Texnologiya Universitetinin, həmçinin bir sıra şirkətlərin nümayəndələri ilə görüşlər keçirmiş və mümkün əməkdaşlıq sahələrini müzakirə etmişdir.

AZƏRTAC tədbir haqqında əməkdaşlarımızın fotosu ilə müşayiət olunan xəbər yaymışdır:
http://azertag.az/xeber/Xezer_Universiteti_beynelxalq_elaqelerini_genislendirir-998078#Kalibri

# Faculty Members of Department of Petroleum Engineering at International Conference

From September 26-29, the Annual Technical Conference and Exhibition Society of Petroleum Engineers was held in Dubai, UAE. Faculty members of the Khazar University Department of Petroleum Engineers participated in the conference as representatives of SPE's Azerbaijan branch including Associate Professor Gasham Zeynalov, Head of the Department and Director of eiLink Research and Development Center, as well as Shariyar Alkhasli, Izat Shahsenov and Elshan Rzayev, instructors of the Department. The conference included technical lectures and exhibits by leading petroleum companies and cutting-edge universities about new technologies for exploitation and development of oil and gas fields. During the conference and exhibition, Professor Zeynalov met with representatives from New Mexico Technical Institute, the University of Aberdeen, King Abdullah University of Science & Technology, and several companies to discuss partnership opportunities.

AZERTAJ published an article about the event accompanied by a photograph of our colleagues:
http://azertag.az/xeber/Xezer_Universiteti_beynelxalq_elaqelerini_genislendirir-998078#Kalibri

# Azərbaycan və Avropa ali məktəbləri arasında NİZAMİ layihəsinin ikinci görüşü İsveçdə keçirildi

Sentyabrın 26-dan 28-dək *Erasmus+* çərçivəsində həyata keçirilən NİZAMİ layihəsi ilə bağlı ikinci görüş Azərbaycanın və Avropa Birliyinin partnyor universitetləri, eləcə də, Azərbaycan Respublikası Təhsil Nazirliyi nümayəndələrinin iştirakı ilə İsveçin Uppsala şəhərində keçirildi. Xəzər Universiteti görüşdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Biologiya elmləri departamentinin müdiri İradə Xəlilova ilə təmsil olunurdu. Görüşə Uppsala Universiteti ev sahibliyi edirdi.

Üç günlük görüş ərzində NİZAMİ layihəsində tərəfdaş olan universitetlərin nümayəndələri təqdimatlarda iştirak edərək, layihənin gedişi barəsində müzakirələr apardılar.

Uppsalada olanda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Uppsala universitetinin prorektoru Eva Akesson, beynəlxalq ofisin məsul şəxsləri ilə görüşdü. Görüşdə Xəzər Universiteti ilə Uppsala Universiteti arasında qarşılıqlı əməkdaşlıq ideyaları müzakirə olundu, müzakirələri davam etdirmək qərara alındı.

# NIZAMI Project Meeting in Sweden for Azerbaijani and European Partners

On September 26-28, the 2nd meeting of the ERASMUS + NIZAMI project took place in Uppsala, Sweden with the participation of members of European and Azerbaijan partner higher education institutions as well as Ministry of Education representatives of Azerbaijan Republic. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Dr. Irada Khalilova, Head of the Biological Sciences Department, represented Khazar University in the meeting. The meeting was held by Uppsala University, a European partner in the project.

The meeting was opened by Erika Dabhilkar, Head of the International Office at Uppsala University, and Associate Professor Claes Levinsson, Head of the Centre for Russian Studies (UCRS). Then Prof. Eva Akesson, Vice-Chancellor of Uppsala University, delivered a welcome speech. Prof. Veronique Montero, NIZAMI project coordinator, University of Montpellier, welcomed all European and Azerbaijan partner universities. She presented the details of the meeting agenda, and introduced the results of the project's first workpackage (WP1: State of the Art of Doctoral Studies) which were presented in the form of an EU report written by professor Amparo Cortes, Barcelona University, Spain. Professor Philipp Baur, member of the International Office of Uppsala University, presented details about tasks and a description of WP5, internalization aspects in doctoral studies and tools to conduct research in an international environment. Perspectives from Azerbaijan and Europe were compared, and case studies were discussed.

On the second day of meetings, Dr. Michael Winckler, administrative director of HGS MathComp, Heidelberg University, who is also local coordinator of four Erasmus Mundus action 2 programs, presented the results of an evaluation of Day 1. General introduction to standards and high standards in doctoral education were presented by Dominika Hobzova and Monika Sieberova from Masaryk University, Czech Republic. In group sessions, representatives of the Ministry of Education of Azerbaijan, Azerbaijani partner universities and European partners discussed high standards in doctoral education.

On the third day of meetings, Dr. Michael Winckler, administrative director of HGS MathComp, Heidelberg University, presented the results of the quality assessment from the evaluation of Day 2. Prof. Veronique Montero, NIZAMI project coordinator, presented the online European Management portal and talked about its perspectives in sustainable communication in doctoral education. All partners participated in the discussion. The meeting ended with positive prospects for the next meeting of the NIZAMI project in Azerbaijan.

During the meetings, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, also met with the Vice-Chancellor of Uppsala University, Eva Åkesson, and members of the International Office to discuss opportunities for partnership between Khazar University and Uppsala University. A decision was made to continue discussions about partnership ideas.

# Hamlet İsaxanlı "Lazımsız fənlər"lə bağlı fikrini bildirdi

Sentyabrın 9-da "Exo" qəzetinin (rusca) İnternet səhifəsində "Lazımsız fənlər" adlı yazı dərc olunmuşdur. Yazıda qeyd olunan məsələ ilə bağlı təhsil üzrə ekspert olaraq, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı fikir bildirmişdir.

Yazını tam şəkildə bu link vasitəsilə oxumaq olar:
http://www.echo.az/article.php?aid=105298

# "Xəzər"in əməkdaşının məqaləsi Kanadada dərc olunub

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Cəmalə Məmmədovanın Kanadada nəşr olunan "*İnternational Journal of English Linguistics*" elmi jurnalında *"Feasibility of CLIL implementation in the education system of Azerbaijan: Attitude towards CLIL and the English Language in Higher Educational İnstitutions"* (*"Azərbaycan təhsil sistemində KDİÖ-nün (Kontent və dilin inteqritə olunmuş şəkildə öyrənilməsi) tətbiqinin əsaslandırılması: KDİÖ və ingilis dilinə ali təhsil müəssisələrində münasibət"*) adlı məqaləsi nəşr olunmuşdur.

Məqalə Azərbaycan ali təhsil müəssisələrində dilin inteqritə olunmuş şəkildə gələcəkdə tədris olunmasına dair ilkin tövsiyələrdən və bu sahədə tədqiqatlardan ibarətdir. Tədqiqat 4 ali təhsil müəssəsində və o cümlədən böyük bir qismi Xəzər Universitetində aparılmışdır. Məqalə bir sira Avropa alimlərinin – Finlandiya, Merisuo-Storm (2007); İspaniya, Lasagabaster & Sierra (2009) və s. tədqiqatları ilə eynilik təşkil edir.




# Instructor's Article Published in Canada

An article entitled "Feasibility of CLIL (Content and Language Integrated Learning) implementation in the education system of Azerbaijan: Attitude towards CLIL and the English Language in Higher Educational İnstitutions" by Jamala Mammadova, instructor of Khazar University's Department of English Language and Literature, was published in the International Journal of English Linguistics in Canada. The article includes primary recommendations for future use of CLIL in higher education institutions of Azerbaijan as well as research in this field which was carried out in 4 higher education institutions including Khazar University. The article is similar to works of noted European researchers such as Lasagabaster & Sierra (2009) in Spain and Merisuo-Storm (2007) in Finland.

# Xəzər Universitetində narkomaniya əleyhinə tədbir





Sentyabrın 29-da "Jurnalistlər Ekstremal Şəraitdə" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Narkomaniyanın insanlığa vurduğu bəlalardan xilas olma yollarının axtarılması ilə bağlı tədbirlərin təşkili və videoçarxların hazırlanması" adlı layihəsini Xəzər Universitetində həyata keçirdi.

Layihənin məqsədi qlobal problemlərdən biri olan narkomaniya ilə mübarizədə ictimai fəallığı artırmaq üçün cəmiyyəti maarifləndirmək idi.

Layihənin müzakirəsində universitetin Humanitar və sosial elmlər fakültəsinin və Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri fəal iştirak etdilər.

# Anti-Drug Use Event at Khazar

On September 29, a project entitled "Organizing events and producing videos about how to find rescue from the negative effects of drug use" was implemented at Khazar University by the Journalists in Extreme Conditions Public Union with the financial support of the President's Board for State Support of NGOs of the Azerbaijan Republic.

The goal of the project was to increase social awareness and public response to the fight against drug use, which is a global problem.

Students of the School of Humanities and Social Sciences as well as the School of Engineering and Applied Sciences actively participated in the event.





# Hamlet İsaxanlının məqaləsi “525-ci qəzet”in internet səhifəsində

Sentyabrın 26-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının “Şəhriyar və “Heydərbabaya salam”ın əzəməti” adlı məqaləsi “525-ci qəzet”in internet səhifəsində yayımlanmışdır. H. İsaxanlı bu yazıda Məhəmmədhüseyn Şəhriyarın şəxsiyyəti və yaradıcılığı haqqında fikirlərini bildirmişdir.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://525.az/site/?name=xeber&news_id=64715

# Xəzər Universiteti “Maarifçi” Tələbə Kredit Fondu ilə əməkdaşlıq edəcək

Xəzər Universiteti ilə “Maarifçi” Tələbə Kredit Fondu arasında tərəfdaşlıq müqaviləsi imzalanmışdır. Tərəfdaşlığa əsasən universitetin aztəminatlı ailələrdən olan tələbələri də fondun təqdim etdiyi təhsil kreditlərindən yararlana biləcəklər.

Xəzər Universiteti fonda qoşulan ilk özəl universitetdir.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

http://www.marja.az/financial/news/found/item/202912-daha-2-universitetin-tələbələri-təhsil-kreditlərindən-yararlana-biləcək.htm.

# Xəzər Universiteti ilə Uppsala Universiteti arasında biotibbi tədqiqatlar üçün addımlar atılır

Sentyabrın 26-da Xəzər Universitetinin Bioloji elmlər departamentinin müdiri, Hüceyrə Patalogiyası üzrə Tədqiqat Mərkəzinin rəhbəri Dr. İradə Xəlilova İsveçin Uppsala Universitetində Biotibbi Mərkəzdə olmuş, mərkəzin direktoru və Hüceyrə və molekulyar biologiya departamentinin müəllimi professor Leif Kirsebom ilə görüşmüşdür.

Professor Kirsebom Dr. Xəlilovanı universitetin tədqiqat laboratoriyaları və avadanlıqları ilə tanış etmişdir. Daha sonra onlar Xəzər Universiteti ilə Uppsala Universiteti arasında tədqiqat və müştərək proqramlarla bağlı əməkdaşlıq məsələlərini müzakirə etmişlər.






# "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu"nun yeni iştirakçıları ilə görüş

Sentyabrın 27-də Xəzər Universitetinin həyata keçirdiyi "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu" layihəsinin V qəbulunun iştrakçıları ilə layihə rəhbərlərinin görüşü keçirildi.

Görüşdə iştrakçılara kurs haqqında ətraflı məlumat verildi və sualları cavablandırıldı.

# Meeting with New Participants of Management Training Course for Potential School Directors

On September 27, the coordinators of the Management Training Course for Potential School Directors met with participants of the 5th iteration of the course at Khazar University. They gave the new participants detailed information about the course and answered their questions.



# Öz əsərlərini dünya muzeylərində görmək hər rəssama nəsib olmur



*2016-cı il iyulun 4-də Azpress.az saytında Xəzər Universitetinin Xalça muzeyinin rəhbəri, rəssam Afaq Kərimovanın yaradıcılığı haqqında məqalə dərc edilmişdir. Məqaləni təqdim edirik.*

Deməli, Afaq Kərimova xoşbəxt rəssamdır ki, onun bir-birindən maraqlı əsərləri təkcə Azərbaycan yox, dünya muzeylərinin daimi eksponatlarıdır. Onu da vurğulayım ki, məni ədəbiyyat və incəsənət sahəsində təəccübləndirmək elə də asan deyil. Çünki 50 ilə yaxındır bu sahələrdə fəaliyyət göstərirəm. Amma rəssam Afaq Kərimovanın sənət əsərlərinə baxanda çox təəccübləndim. Təəcübləndim ki, niyə bu vaxta qədər belə istedadlı rəssamı yaxından tanımamışam. Və dəfələrlə gördüyüm bu rəsm əsərlərinin məhz Afaq Kərimovanın işləri olduğunu bilməmişəm...

Onu oxucularımızla da yaxından tanış etmək istəyirəm.

*Qısa arayış:* Afaq Kərimova Bakı şəhərində anadan olub. Uşaq yaşlarından rəsm əsərləri çəkməyə başlayır. Onun maraqlı işlərini gorən məktəb rəhbərliyi və müəllimləri divar qəzetlərinin, eləcə də məktəbdəki tədbirlərin tərtibatını ona tapşırırdılar. O, sənədlərini 1972-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq məktəbinə verib və bu məktəbə qəbul olunub. Elə həmin vaxtdan da onun rəssam ömrü başlayıb.







1976-cı ildə rəssamlıq məktəbini bitirib. 1981-85-ci illərdə Mirzə Ağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dekorativ tətbiqi sənət fakültəsində təhsilini davam etdirib. Burada Xalq rəssamı, xalça sənətimizi dünyaya tanıdan Lətif Kərimovun ən istedadlı tələbələrindən biri olsa da, Afaq xanım təkcə xalça rəssamı olaraq qalmadı. Rəssamlığın bütün növlərində bir-birindən maraqlı əsərlər yaradıb ortaya çıxardı. Həmin əsərlərin də çoxu artıq muzeylərdədir. O, 1989-cu ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Onun ilk ən böyük işi - Üzeyir Hacıbəylinin "Sənsiz" romansına işlədiyi diplom işi 1981-ci ildə artıq mütəxəssislər tərəfindən çox maraqla qarşılandı. Əsər haqqında deyilən maraqlı fikirlər ona qol-qanad verdi. Bunun ardınca Nizami Gəncəvinin yubileyi münasibətilə " Yeddi gözəl" əsəri əsasında işlədiyi "Türküstan gözəli" və "Xosrov və Şirin " xalçaları ciddi maraq doğurdu. Xalçalar Nizami adına Ədəbiyyat muzeyi və Rüstəm Mustafayev adına İncəsənət Muzeyi tərəfindən böyük həvəslə alındı. Müəllimi Lətif Kərimov artıq özünün yeni davamçısının yetişdiyini və onun sənətini uğurla davam etdirə biləcək tələbəsinin olduğunu mətbuatda açıq şəkildə yazdı. Bu haqda Afaq xanım belə deyir: " Lətif müəllim bizə belə bir ev tapşırığı vermişdi: ornamentlərdən bir budaq kompozisiya işləyək. Mən həmin ornamentlərdən onun özünün portretini işlədim. Bu işim onun çox xoşuna gəldi və Fransanın "Xalı" jurnalında çap etdirdi. Dünya xalça simpoziumu ərəfəsində də başqa məşhur rəssamların işləri ilə birlikdə bu işi də ayrıca jurnalda çap etdirdi. Beləliklə, müəllimim başqa xalq rəssamları ilə yanaşı mənim bu işimi də üzə çıxardı".

Sonralar Afaq xanım müəlliminin işlərini uğurla davam etdirdi. Artıq müzeyləri



Afaq Kərimova "Azərxalça" İstehsalat Birliyinə baş rəssam təyin olunandan sonra onun yaradıcılığının elə bil ki, yeni dövrü başladı. Hər yubileylər gələndə dövlət səviyyəsində Afaq xanıma müraciətlər, sifarişlər olundu.

Beləliklə, "Dədə Qorqud", "Füzuli-500", "Şəbi- hicran", "Leyli və Məcnun", "Natəvan", "Hüseyn Cavid", "Cavidlər", "Səməd Vurğun" və başqa xalçaları, Ağabəyim Ağabacının yaradıcılığına həsr olunan parça üzərindəki batika işləri, Turan Cavidin yaradıcılığına həsr olunan "Alın yazısı" batiki və eləcə də ulu öndər Heydər Əliyevə həsr olunan bir-birindən maraqlı bir neçə xalça və batikləri dünya muzeylərində sərgilərdə nümayiş olundu. Bu əsərləri də xarici ölkə vətəndaşları böyük maraqla qarşıladı. Hazırda həmin əsərlər muzeylərin daimi eksponatlarıdır.

Qeyd edim ki, 2014-15-ci illərdə "Xəmsə" batikləri, "Məhsəti" xalşası və batiki Heydər Əliyev Mərkəzinin sifarişi ilə UNESCO-nun xətti ilə Fransanın Paris, Kann, Reyn, Strasburq şəhərlərindəki və Luvrdakı sərgilərdə il boyu numayiş olunub və hal-hazırda Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin daimi eksponatlarıdır.

Bu yazını hazırlayarkən Afaq xanımla söhbət etdim:

**- Afaq xanım, sizin yaratdığınız əsərlərə baxanda burada Ulu Öndərə həsr olunan biri - birindən maraqlı işləri gördüm. İstərdim ki, bu əsərlərin yaranma tarixi haqqında məlumat verəsiniz.**

*- Mənim yaradıcılığım təkcə portret, rəngkarlıq yox, rəssamlığın demək olar ki, bütün sahələrini əhatə edir. Məsələn, batikanı Ağabəyim Ağabacı işində sınaqdan keçirdim və gördüm maraqlı alınır. Ona görə də, bu sahədə başqa əsərlər də işlədim. Azərbaycanda bölgələrdə Heydər Əliyev muzeyləri açılanda məni dəvət etdilər və bir neçə yerdə batika üslubunda Ulu Öndərlə bağlı sujetli işlər gördüm. Çalışmışam ki, bu sujetli batiklər hər bölgənin özünə uyğun, həm də orijinal olsun.*





**- Sizin sərgiləriniz təşkil olunubmu?**

*- Respublika sərgilərində çox iştikak etmişəm. Fərdi sərgim isə üç dəfə təşkil olunub. Axırıncı sərgim 2007-ci ildə Rüstəm Mustafayev adına İncəsənət Muzeyində Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin və Rəssamlar İttifaqının birgə təşkil etdiyi sərgi oldu. Bu sərgim çox maraqla qarşılandı. Dövri mətbuatda və televiziya kanallarında tanınmış sənətkarlar, alimlər maraqlı fikirlər dedilər.*

Afaq xanımın sözünə qüvvət olaraq görkəmli alimlər - Bəkir Nəbiyev, Teymur Kərimli və Nizami Cəfərovun söylədikləri fikirləri oxuculara çatdırıram:

**Bəkir Nəbiyev:** "Afaq xanımın əsərlərini gördük və inandıq ki, Azərbaycan rassamlığına öz gözəl dəsti-xətti olan, yeni orijinal bir sənətkar gəlir. Mən Azərbaycanda iki belə zirvədə olan yaradıcı qadının sənətini xüsusi qiymərləndirirəm: musiqi aləmində Ağabacı Rzayevanın, tətbiqi sənət aləmində isə Afaq Kərimovanın".

**Teymur Kərimli:** "Afaq Kərimovanın "Füzuli silsiləsi"ndən əsərləri, onun bu böyük sənətkarın yaradıcılığına dərindən bələd olduğunu və incədən-incəyə duyduğunu göstərir".

**Nizami Cəfərov:** " Afaq xanım əsərlərinin hamısının bu sərgidə olmamasından narahat olmasın, buradakı süjetli xalçalardan təkcə biri fərdi sərgi üçün kifayət edərdi. Onun hazırladığı xalçalar hal-hazırda Amerika Birləşmiş Ştatlarında, Türkiyədə, Fransada, İspaniyada və bir sıra digər xarici ölkələrdə nümayiş olunur. Bu haqda xarici mətbuatda maraqlı yazılar da çap olunur".

**- Afaq xanım bu gün öz sənətini cavanlara öyrədirmi?**

*- Bəli. Mən bir müddət "Azərxalça" İstehsalat Birliyinin, Nizami adına Ədəbiyyat Muzeyinin, Hüseyn Cavid Ev Muzeyinin baş rəssamı işləyəndən sonra, indi Xəzər Universitetində müəllim işləyirəm. Mən orada işə başladığım gündən özümün, müəllimlərin və tələbələrin əl işlərindən ibarət maraqlı bir muzey- emalatxana yaratdıq. Bu universitetə tez-tez xarici ölkələrdən qonaqlar gəlir və bu muzeydəki işlərlə tanış olurlar.*

*Bilirsiniz ki, Xəzər Unuversitetində həm də xarici ölkələrdən çoxlu tələbələr təhsil alır və xarici ölkələrdən olan müəllimlər də dərs deyirlər. Onların hamısı bu muzeyə maraqla tamaşa edirlər. Həmin muzeydə tətbiqi sənətin bütün növlərindən - zərgərlikdən, xalçaçılıqdan, rəngkarlıqdan və başqalarından ibarət maraqlı işlər var.*





*Hansı tələbənin istedadı hansı səmtədirsə, həmin sahədə də özünü sınayır. Biz də ona köməklik edirik ki, həmin sahədə püxtələşsin.*

2016-cı ilin yanvar ayının 29-da Bakıda Xəzər Universitetində Avrasiya Akademiyasının rəsmi açılışı, müəllifi Afaq xanım olan "Avrasiya əfsanəsi" kubokunun təqdimat mərasimi keçirildi. Xəzər Universiteti adından Avrasiya Akademiyasına hədiyyə - Afaq Kərimovanın dizaynı və rəhbərliyi altında tələbə və müəllimlər tərəfindən hazırlanmış "Nizami xalçası" təqdim olundu. Sonra Avrasiya Akademiyasının yaranmasında xidmətlərinə görə Afaq Kərimovaya təşəkkür elan olundu. Əlbəttə, bütün bunlar da rəssamın böyük nailiyyətidir.

İnaniram ki, Afaq Kərimova kimi istedadlı rəssam müvafiq təşkilatların diqqətindən kənarda qalmayacaq. Fəxri adlar veriləndə, Afaq xanım da rəssam kimi özünün layiqli fəxri adını alacaq. Axı, hər bir iş özünün haqqını vaxtında alanda daha yaxşı və maraqlı olur. Ona görə də, sənətkara vaxtında qiymət vermək lazımdır və vacibdir.

**Ağalar İdrisoğlu,**

# Beşik mahnısının hikməti

*(Hekayə)*



**Yakob Qoqebaşvili**
*(1840-1912)*

Tiflisdən Şərqə doğru getsən, bir uca dağa rast gələcəksən, onun adı Sivi dağıdır.

Bu Siviyə qalxsan və orada, Şərqə doğru baxsan, sənin gözlərin önündə aşağıda göz işlədikcə uzanıb gedən vadi açılacaqdır.

Bu vadi bütün yaşıl üzümlüklər dənizini əhatə edir. Bu vadinin üzərində, orta hissədə uzun, şimaldan cənuba doğru uzanan parlaq zolaq görəcəksən.

Bu düzənlik sahə Kaxetiya vadisidir, parlaq zolaq isə Alazan çayıdır, bu çay Kaxetiyanı, demək olar ki, iki bərabər hissəyə bölür; bir yarısı Bu Tay, o biri yarısı - O Tay adlanır.

O Tay Şərqdən uca qağlarla sərhədlənir və onlar Kaxetiyanı Dağıstandan ayırır, bu diyar həmin dağların o tərəfindən başlanır.

Əgər O Tay tərəfə göz gəzdirsən, bir yerdə, dağın dibində, böyük çökəklik görəcəksən, dağın dərinliyinə işləmiş çökəklik. Bu çökəklik indi əkin-səpin yeridir.

Lakin yaxına getsən və yaxşıca diqqət yetirsən, torpaqların qatlarına və üst qatına nəzər salsan, əhəng daşlarını, kirəci və onların qalıqlarını asanca görərsən, bu qalıqlar onun inkaredilməz təsdiqidir ki, bu yer kənd xarabalıqlarıdır.

Qədim zamanlarda məhz həmin yerdə Vaşlovani adlı çox böyük kənd çiçəklənirdi.

Bu kənd Qərbdən üzümlüklərlə, Şərq tərəfdən isə az qala sıx və geniş yayılmış meşələrlə əhatə olunurdu.

Dağın yamacları bu meşələrlə bürünmüşdü. Bu sıx meşələrin sayəsində kəndin düz ortasında torpaqdan fəvvarə kimi gur, göz yaşı kimi dumduru bulaq suyu qaynayırdı, bu bulağın buz kimi soyuq suyu bütün kəndin sevimli içkisi idi.

Vaşlovaninin kənarında, Şərqə doğru, meşənin yaxınlığında yaraşıqlı ikimərtəbəli saray tikilmişdi, hərtərəfi gözəl naxışlı məhəccərlə əhatə olunmuşdu.

Bu saray tavad (*tavad – gürcü mülkədarı* – **red.**) Zurab Kartveladzeyə mənsub idi, bu tavad özünün var-dövləti və duz-çörəyi ilə bütün Kaxetiyada məşhur idi, Kartlidən olan, daha doğrusunu desək, qızıl ürək sahibi Maqdani onun arvadı idi.

Maqdaninin möcüzəvi səsi vardı və özünün məlahətli, gözəl mahnıları ilə bütün guşədə ad çıxarmışdı. Onun səsi və mahnısı insan qəlbinə elə dərin yol tapırdı ki, elə ləzzət verirdi ki, hər kəs onu dinləsəydi, bütün həyatı boyu unutmazdı. Zurab və Maqdani cəmi beş-altı il idi ki, evlənmişdilər.

Onların yeganə qız övladları vardı - adı Keto idi, qız üç yaşının içində idi. Keto çox sevimli uşaq idi: gözəl, ağ pambıq qozası kimi, şux, yorulmaz, çevik.

Keto öz anasının mahnılarını sevirdi. Tez-tez oxudurdu və saatlarla diqqətlə qulaq kəsilirdi. Ata-anasının Günəşi onunla doğurdu və onu dəlicəsinə sevirdilər.

***

Ləzgilər Vaşlovanidə və ümumiyyətlə, Kaxetiyada tez-tez görünər, gəlib-gedərdilər. Qədim zamanlardan Dağıstan ilə Gürcüstan arasında mehriban münasibətlər mövcud idi, böyük dostluq hökm sürürdü.

Dağıstan Gürcüstanın düşmənini öz düşməni hesab edirdi, Gürcüstanın dostuna öz dostu kimi baxırdı. Heç kəsin ağlına belə gəlməzdi ki, haçansa Gürcüstana basqın edərdilər və gürcülərlə savaşardılar.

Ləzgilər müsəlmanlığı qəbul etdikdən və gürcülər pravoslav Rusiyaya üz tutduqdan sonra Gürcüstanın düşməninə çevrildilər. Qədim dövrdə isə gürcüləri böyük hörmət və ürək dostluğundan başqa heç nə ilə yad etmirdilər.

Bu dostluğa və qonşuluğa görə ləzgilər Kaxetiyaya sərbəst gedib-gəlirdilər, ən çox da ticarət məqsədi ilə. Satmaq üçün ən çox keçə məmulatlar və silah gətirirdilər, bu şeyləri hazırlamaqda onlar məşhur idilər.

Vaşlovani kəndinə çoxdan idi ki, ticarət məqsədi ilə iki nəfər alçaq boylu, yöndəmsiz ləzgi gedib-gəlirdi.

Onlar o qədər fağır, yazıq insanlar idilər ki, heç ləzgilərin özləri belə onları adam yerinə qoymurdular, ona görə də heç kəs onlardan pis əməl gözləmirdi, lakin onlar tezliklə gürcü xalq atalar sözlərini təsdiq etdilər: Yerəbaxan, saman altdan su yeridən olar...

Bir dəfə həmin ləzgilərdən biri o birisinə dedi:

- Bilirsən ağlıma nə fikir gəlib? Nə vaxtdır ki, biz ticarətlə məşğul oluruq, lakin bundan nə çıxdı, yenə də həmin yoxsullarıq, necə ki, var idik, yenə də həmin it günündə yaşayırıq - əvvəllər olduğu kimi. Başqa cür hərəkət etsəydik isə, birdən-birə varlanardıq və bu qədər əzab-əziyyətdən yaxa qurtarardıq.

- Necə? - Yoldaşı soruşdu.

- Zurab Kartveladze ki, olduqca dövlətlidir? - deyə o soruşdu.

- Hə, varlıdır, lakin onun dövlətli olması bizə nə verir?

- Verər, əgər ağılla hərəkət etsək. O dövlətli kişi ki, öz övladını dəlicəsinə sevir?

- Sevir, lakin bundan nə çıxdı?

- O çıxdı ki, o uşağı birtəhər qaçırıb, əsir kimi Dağıstana aparsaq, necə düşünürsən, Kartveladze öz qızını əsirlikdən xilas etmək üçün var-dövlətini əsirgəyərmi? Hay, hay, inan ki, əsirgəməz!

Bu fikir yoldaşının da xoşuna gəldi və qərara aldılar ki, pusqu qursunlar və əlverişli məqam ələ düşən zaman sakitcə Kartveladzenin Ketosunu qaçırtsınlar və Dağıstana əsir aparsınlar.

Biz artıq bilirik ki, Vaşlovani kəndi Şərqdən böyük meşə ilə əhatə olunmuşdu. Kartveladzenin ailə üzvləri bu meşənin kənarını tez-tez seyrə çıxardılar, çünki ev elə oradaca yaxında tikilmişdi.

Bir dəfə Ketonun dayəsi axşamüstü bu meşəyə tərəf gəzməyə çıxdı və Ketonu da özü ilə apardı.

Meşəyə yaxınlaşdıqda uşaq ağacın altında quş gördü və ona doğru qaçdı. Quş səksəndi və o tərəfdəki ağaclara doğru qanadlanıb uçdu.

Uşaq da onun ardınca qaçdı, bu minvalla Keto meşənin xeyli dərinliyinə getdi. Dayə də onun ardınca gedirdi. Birdən haradansa ləzgi peyda oldu, Ketonun üstünə cumdu, əlindən yapışdı, o biri əli ilə ağzını tutdu və onu qaçırtdı.

Dayə çığır-bağır salmağa imkan tapa bilmədi, çünki bu zaman ikinci ləzgi onun başına dəyənəklə zərbə endirdi və huşsuz halda yerə sərdi. Ketonu qaçırtdılar və özləri ilə apardılar.

***

Ketonun ata-anası heç nə barədə fikirləşmirdilər, elə bilirdilər ki, onların qızı və dayə qonşulardadırlar və vaxtında qayıdıb gələcəklər.

Qaranlıq düşəndə və dayə uşaqla heç yerdə görünməyəndə, təşvişə düşdülər və onları soruşmaq üçün qonşulara adam göndərdilər, lakin nə tapacaqdılar. Hər yerdə dedilər ki, onları bu gün heç görməmişlər.

Onda qorxuya düşmüş ata-ana məşəllərlə kəndin ətraflarını axtarmağa başladılar. Çox axtardılar və axırda meşədə dayənin üstünə gedib çıxdılar, qadın ölü kimi ağacın altında sərilib qalmışdı. Gecənin

sərinliyi və səs-küy dayəni huşa gətirdi və o ayıldı.

Hələ əməlli-başlı özünə gəlməmişdi ki, təşvişə düşmüş və rəngi-ruhu qaçmış Maqdani çığırdı: "Keto haradadır?"

Dayə zəif səslə və dincələ-dincələ ləzgilərin Ketonu necə qaçırtdıqlarını söylədi. Bunu eşidən kimi Maqdaninin ürəyi getdi. Zurab da çox pis hala düşdü, lakin özünü kişi kimi ələ aldı, kədərini üstələdi və bağırdı: Hoydu, təqibçi!

O zamanlar hər igidin evdə tam silah-əslahası, yar-yarağı olurdu və onlar həm də təcrübəli döyüşçülər olurdular, çünki ən çətin anlarda Gürcüstan çarı bütün kişiləri orduya çağırırdı.

Ona görə də Zurabın çağırışından sonra heç bir saat da keçməmişdi ki, onun evinin qarşısında qırx nəfərə qədər igid dayanmışdı – hamısı da başdan ayağadək yar-yaraqlı. Zurab da tezliklə çıxdı, onları salamladı və irəli düşdü.

Gecə buludlu zülmət qaranlıq idi. Ləzgilər Ketonu qaçırtdıqdan sonra xeyli vaxt keçmişdi. Dağıstana doğru yalnız dar cığırlar gedirdi və onlarla hərəkət etmək gecənin qaranlığında olduqca çətin idi.

Ketonu qaçıran ləzgilər bu cığırları elə tanıyırdılar ki, buralarla gözüyumulu da gedə bilərdilər.

Zurab və onun dəstəsi isə burada, demək olar ki, heç olmamışdılar, ona görə də ləzgilər bütün gecəni dincəlmədən və heç bir maniəyə rast gəlmədən yol getdilər, təqibçini böyük məsafə ilə arxada qoydular və qaçırtdıqları Ketonu elə o biri gün Dağıstana keçirdilər. Zurab Kartveladze öz ətrafı ilə birlikdə əliboş və əldən-dildən düşmüş halda geri qayıtmağa məcbur oldu.

***

Ləzgilər əvvəlcə Ketonu Kaxetiyanın sərhəddi yaxınlığındakı Dağıstanın iri bir kəndindən keçirdilər. Bu kənddə bir nəfər dövlətli naib yaşayırdı, Dağıstanın bütün Qərb hissəsi ona tabe idi.

Onun arvadı da ləzgi idi, bu qadın Allah tərəfindən eyni zamanda həm igidlik və həm də incə qəlb ilə mükafatlandırılmışdı.

Onlar xeyli vaxt idi ki, evlənmişdilər, lakin övladları yox idi və övladlığa uşaq götürməyi qərara almışdılar.

Ləzgilər Ketonu onların həyətinin qarşısından keçirəndə axşam çağı idi. Naib və onun arvadı evin divarsız dəhlizində oturmuşdular.

Onlar oradan keçən iki ləzgini gördülər və onlardan birinin arxasındakı dağarcıqdan başı və sifəti görünən uşaq nəzərlərini cəlb etdi.

Onları öz yanlarına çağırdılar, ləzgilər çox razılıqla getdilər və öz ağaları, hökmdarı kimi naibə baş əydilər. Hadisəni ləzgilərdən təfərrüatı ilə soruşdular.

Onlar danlanmaqdan qorxdular və dedilər ki, bu uşağı yolda tapıblar və özləri ilə gətiriblər.

Balaca Keto həm uzaq yol gəldiyindən və həm də acılıqdan olduqca zəifləmişdi və gözlərini güclə açırdı, lakin bu zəiflik onu daha sevimli uşağa çevirirdi. Naibin arvadı ləzgilərdən soruşdu: Nə verək ki, bu uşağı bizdə qoyasınız?

- Biz nə deyə bilərik, xanım, əgər istəyirsinizsə, peşkəşiniz olsun.

Naib ayağa qalxdı, evə girdi, içərisi qızıl ilə dolu bir iri kisə gətirdi və ləzgilərə verdi. Naibin arvadı Ketonu ləzgilərdən aldı və elə o andaca sinəsinə sıxdı. Ləzgilər təşəkkür etdilər və çıxıb getdilər.

Ana nəvazişi haldan düşmüş uşağı tezliklə sağaltdı. Lakin qız çox qəribsəyirdi, hər şey ona yad görünürdü, ancaq səfeh ləzgilərin əllərində əziyyət çəkdikdən sonra naibin arvadının əzizləməsi və ona qayğı göstərməsini özünə tale bəxti hesab etdi.

İlk zamanlar yenə də Keto hər şeyə soyuqluqla yanaşırdı və tez-tez ağlayırdı.

Öz ata-anasını, başqa ev adamlarını və öz kəndini xatırlayırdı, lakin naib və onun arvadı Ketoya elə məhəbbətlə, elə nəvazişlə və əzizləməklə yanaşırdılar ki, əvvəllərdə olmuşları ona tezliklə unutdurdular.

Naib və onun arvadı özlərini Ketoya elə sevdirdilər ki, doğma ata-anasının məhəbbətini, xatirələrini get-gedə onun hafizəsindən sildilər. İki-üç ildən sonra Keto naibi və onun arvadını özünün həqiqi valideynləri hesab edirdi.

Onlarla nəfəs alırdı, onlarla sevinirdi. Doğma ata-anasının izi onun təbiətindən, demək olar ki, bütünlüklə silindi. Ləzgi dili az-az, günbəgün doğma dili zəiflətdi, onun yerini tutdu və onu söndürdü.

Ləzgi kəndi doğma Vaşlovaninin adını onun qəlbindən silib çıxartdı. Keto yalnız bir çatışmazlığı uzun müddət hiss edirdi: Maqdaninin gözəl və məlahətli səsini, nəşələndirici mahnısını eşitmirdi, bu səs Ketonun qulağını əfsunlamırdı, lakin bunu da tezliklə unutdu, ancaq hamısından axırda.

Bir sözlə, bu gün - gerçəklik Ketonun ruhunda kök saldı və keçmişin əvvəlki rəngini soldurdu və sonra isə tamamilə yox etdi. Gürcü qadını ləzgi qadınına, Kaxetiya övladı - Dağıstan övladına çevrildi.

Ketonun belə tamamilə dəyişməsinə bu da kömək etdi ki, naib kənddə qəti əmr vermişdi: heç kəs, heç vəchlə cürət edib Ketonun qulağına çatdırmasın ki, onu qızlığa götürmüşlər və bizim doğma uşağımız deyil.

***

Ketonun ata-anası bu zaman nə düşünürdü? Onlar bilmirdilər ki, ləzgilər uşağı nə etdilər. Zurab öz uşağının Dağıstanın orta hissələrində olduğunu güman edirdi və oralarda axdartdırırdı, çünki uşağı qaçırdan ləzgilər oradan idilər.

Bu minvalla üç-dörd il gəlib keçdi. Axırda bir tanış ləzgi xəbər gətirdi ki, filan-filan naib sənin uşağını ələ keçirib, qızlığa götürüb və öz qızı kimi böyüdür.

Zurab həmin naibə ismarıc göndərdi ki, o qız mənim uşağımdır, oğrunca qaçırdılmışdır, təkcə o uşağı qaytar və nə istəyirsən sənə verərəm. Naib cavab kimi belə bir ismarıc göndərdi:

Əgər lap başdan bilsəydim ki, sənin uşağındır, mən özüm qaytarardım, lakin indi artıq gecdir.

Mənim də və arvadımın da Günəşi bu qızla doğur, o da bizi çox sevir, buralara öyrəşmişdir, sizi tamamilə unutmuşdur və ona görə də bütün Kaxetiyanın var-dövlətini gətirib mənim qapıma töksən də Ketonu qaytara bilmərəm.

Bu cür cavabdan sonra Zurab öz qızını yalnız güc tətbiq etməklə xilas edə bilərdi, ya da ki, hər hansı bir başqa üsulla. Ketonun Dağıstanda qalması isə ata-anası üçün dözülməz idi, həm də Ketodan sonra Maqdinanın uşağı olmurdu.

Kartveladze bir neçə dəfə iyirmiyə qədər silahlı igidlə Ketonu qaçırtmaq üçün Dağıstana getdi, lakin nahaq yerə, naib onun istəyini və niyyətini yaxşı bilirdi və ona görə də həmişə yolda elə yerdə pusquda qoyulmuş ləzgilərlə qarşılatdırırdı ki, orada pusqu qurmuş bir adam iyirmi, hətta qırx nəfər igidin yolunu kəsə bilərdi.

Gürcülərin dəstəsinin çoxduğu da naibin malikanəsinə yaxınlaşmağı çətinləşdirirdi.

Bu yolla heç nəyə nail ola bilmədikdə, Zurab fəndə əl atdı: şayiə yaydı ki, öz qızını qəlbindən çıxartmışdır və ata-anasının yanından qaçırtmağa heç cəhd də göstərməmişdir.

Bu xəbər naibə də gedib çatdı və o, əvvəlcə buna şübhə gözü ilə baxdı, sonra isə inandı, çünki bütün iki il ərzində Kartveladzedan səs-səmir çıxmırdı.

Bu vaxta qədər Ketonu bayıra çox ehtiyatla buraxırdılar, indi isə ləzgilərin başqa qadınları kimi, bir məhəllələrdən o birisinə tanışlarının yanına sərbəst gedib gəlirdi. Bütün bunların hamısını Zurab tanış ləzgilərin vasitəsilə yaxşıca öyrəndi və ehtiyatın başqa cür görməyə başladı.

***

Ləzgilər Ketonu qaçırtdıqları vaxtdan düz onuncu bahar ötüb keçdi, meşə sıx yaşıllaşmışdı və naibin kəndinə doğru nəzərə çarpmadan yaxınlaşmağı asanlaşdırırdı.

Zurab oralı bir ləzgini, çoxdan tanış olduğu və duz-çörək kəsdiyi adamı ələ aldı, bələdçi kimi yanına saldı və özü ilə yalnız on nəfər silahlı igid götürdü. Bütün yolu elə ehtiyatla getdilər ki, yolda bir nəfər ləzgiyə belə rast gəlmədilər.

O biri gün, axşam çağı naibin kəndinin kənarına gəlib çatdılar və meşədə əlverişli yerdə gizləndilər. Tanış ləzgi həmin gecə səssiz öz kəndinə getdi və səhər tezdən olduqca şad xəbər gətirdi:

Sən demə, Keto hər səhər özünün bir nəfər dostu qadına baş çəkməyə gedirmiş. Bu qadın qocalmış və bir az bundan əvvəl vəfat etmiş əvvəlki naibin qızı imiş.

Cavan qız atasının ölümündən çox kədərlənibmiş və ona görə də Keto hər səhər onu sakitləşdirməyə, ona ürək-dirək verməyə gedirmiş.

Günəş çıxan kimi Zurab Kartveladze yolun kənarına gəldi, ağacların arxasında gizləndi və Ketonun gəlib keçəcəyi yola baxmağa başladı. Kartveladze ilə üzbəüz, yolun o biri tərəfində böyük təpə vardı və bu təpə kəndi iki hissəyə, aşağı və yuxarı məhəlləyə bölürdü.

Keto aşağı məhəlldən bu təpəni və meşənin ortasını aşmalı və yuxarı məhəlləyə qalxmalı idi.

Gözləməklə xeyli vaxt keçdi, Zurab belə fikirləşdi ki, birdən Keto yuxarı məhəlləyə qalxmaq fikrindən vaz keçərsə, necə olar, ancaq elə bu vaxt uzaqda yenicə boy atmış qadın göründü, qürurla addımlayan və ləzgisayağı geyinmiş bir qız.

Zurab gözünü zilləyib baxmağa başladı və ürəyinin döyüntüsü artdı. Qadın get-gedə yaxınlaşdı və Zurab elə baxırdı ki, sanki ac gözləri ilə onu yemək istəyirdi.

Ketonun qiyafəsi bir qədər dəyişmişdi, xeyli böyümüşdü, yaşına görə böyük görünürdü, lakin rəngi və sir-sifəti uşaqlığındakı kimi, əvvəlki təki qalmışdı.

Atanın qəlbi hədsiz sevinclə doldu, öz Ketosunu yenə də gürcü qadını kimi tanıyanda şadlığı yerə-göyə sığmadı. Keto Zurabın daldalandığı ağaclara gəlib çatdı.

Kişi vaxt tapıb qızı qorxutmamaq üçün yavaşca, ehtiyatla onun qarşısını kəsdi. Keto diksindi, hürkmüş cüyür kimi kənara sıçradı.

- Qorxma, bala, sənin atanam, buraya gəldim ki, səni evə, ananın yanına aparım, - deyə şirin, ata səsi və nəvazişi ilə Zurab dilləndi. Keto qorxa-qorxa naməlum sözləri dinləyirdi və heç nə başa düşmədi ki, bu tanımadığı kişi ondan nə istəyirdi.

Zurab fikirləşdi ki, əgər danışmağa vaxt itirərsə, kimsə gəlib çıxa və iş korlana bilər, ona görə də sürətlə Ketoya doğru getdi, ehmalca biləyindən tutdu və meşəyə doğru qaçırtdı.

Keto hay-haray saldı, bu səs-küyü kənddə eşitdilər, lakin kimin idi və haradan gəlirdi, ilk anlarda təyin edə bilmədilər. Kənd ayağa durdu və bir neçə nəfər adam naibin yanına getdi.

O, başqa yerdə idi və ona görə də vaxtında ona xəbər çatdıra bilmədilər. Bu xəbəri ona çatdıranda olduqca mütəəssir oldu və dedi: Heç şübhəsiz qızı Kartveladze qaçırtdı və təqibçini çağırtdırdı.

Təcili surətdə otuz nəfər silahlı igid toplandı. Vaşlovaniyə doğra üç yol gedirdi. Naib təqibçiləri üç hissəyə ayırdı.

On nəfər igidi bir yol ilə, on nəfəri - ikinci yol ilə göndərdi və on nəfər igid ilə isə üçüncü yol ilə özü təqib etməyə başladı. Hər üç təqibçi dəstə az qala Vaşlovaniyə qədər gedib çatdı, lakin Zurabın və Ketonun izinə düşə bilmədilər: onları sanki torpaq udmuş və yoxa çıxmışdılar.

İş burasında idi ki, Zurab öz qızını Vaşlovaniyə doğru aparmamışdı, çünki yaxşı bilirdi ki, təqibçi buraya gəlib çatacaqdı.

O, Şimal yoluna üz tutdu, bu yol Kaxetinin yuxarı kəndlərinə gedib çıxırdı. Uzaqdan dövrə vurmağı üstün tutdu ki, evə sağ-salamat gedib çıxsın, ancaq vay belə sağ-salamat gedib çıxmağa...

Keto ilk zamanlar öz atasını tanımırdı və buna görə kədərli olacaqdı, Zurab bu barədə düşünürdü, bununla yanaşı əmin idi ki, tezliklə yaddaşı özünə gələcəkdir, əvvəlcə öz atasını, sonra anasını tanıyacaqdır, öz uşaqlığı yadına düşəcəkdir və şadlanacaqdır, lakin çox aldanırdı.

Bütün yol boyu Ketonun kədərinin həddi-hüdudu yox idi. Onun gözlərindən ara vermədən sel kimi yaş axırdı. Elə hıçqırırdı ki, az qalırdı iç-çalatı ağzından çıxsın.

Atası qızının bu cür əziyyət çəkməsindən çox narahat olurdu, onun qüssəsini bir qədər azaltmağa çalışırdı, lakin əbəs yerə. Onun hər bir nəvazişi Ketonun kədərini artırırdı.

O, Zuraba özlünün qanlı düşməni kimi baxırdı, onu ata-anasından, sevimli vətənindən ayıran, düşmən kimi əsir aparan canı hesab edirdi. Ona görə də onun hər bir şirin sözü və şərikliliyi ürəyinə xəncər kimi sancılırdı.

Zurab buna ümid bəsləyirdi ki, bəlkə evə qayıtdıqdan sonra Keto ağıla gəldi, anasını, öz həyət-bacasını, kəndini tanıdı və ürəyi bizə doğra döndü.

Zurab bu fikirlə ümidlənirdi ki, öz evinin qapısını açdı, Ketonu içəri apardı və öz arvadına sevinclə dedi: "Aha, Maqdani, sənin Ketonu gətirdim!"

Sevincdən aşıb-daşan Maqdani qızına doğru atıldı, lakin sevinci təəssüfə çevrildi, öz qızının sifətində təsvir edilməsi çətin olan əziyyət izləri gördükdə özü də qüssələndi.

Maqdani Ketonu sevinclə köksünə sıxdı, onun kədərini yüngülləşdirmək istədi, lakin əbəs yerə. Keto buz kimi soyuq, daş kimi tərpənməz idi və Maqdaninin analıq nəvazişləri və əzizləmələri ona heç bir təsir göstərmirdi.

Yox, göstərdi, lakin tamamilə gözlənilənlərin əksini. Maqdaninin nəvazişi Ketonun gözləri önündə onun analığının, naibin arvadının simasını və nəvazişini canlandırdı. Kədəri daha da gücləndi və qaynar göz yaşları gözlərindən sel kimi axmağa başladı.

- Sənin valideyinin, ananam, bala! Bu da sənin doğma atandır!— deyirdi Maqdani Ketoya. - Bax, bu sən doğulduğun evdir, uşaq vaxtı iməkləyirdin. Bax, budur, sənin balaca beşiyindir, sən burda yatırdın, bu da səhərdən axşamadək oturduğun sevimli bağçan.

Lakin Ketonun nə buralarda gözü vardı, nə də könlü. Onun hissləri və ağlı dərin kədər və dərd ilə dolu idi. Maqdani yenə də ümidini itirmirdi ki, Keto bu gün olmasa da, sabah öz körpəliyini yadına salacaqdı, valideynlərini tanıyacaqdı və onlara qayıdacaqdı.

Bir neçə həftə keçdi və ata-ananın bu arzusu həyata keçmədi. Keto demək olardı ki, yemirdi, içkiləri də az içirdi, dərindən ah çəkirdi, saraldı və ölüyə bənzədi.

O, taxtın üstündə sakitcə oturur, əsasən gözləri yumulu halda durur və onun xəyalı oraya, Dağıstana, tay-tuşlarının yanına uçur, o kənddə dolaşırdı. Onu əhatə edən hər şey yad görünürdü, hamını gözdən salmışdı, hamını öz düşməni hesab edirdi, hamıdan acığı gəlirdi.

Onu ağla gətirmək üçün bir çox fəndlərdən istifadə etdilər ki, uşaqlığını yadına salsınlar. Anası bir neçə dəfə onu qaçırdıqları yerə, meşəyə apardı.

Axşamçağı, onu qaçırdıqları vaxt apardı, Ketonun öz dayəsi ilə tez-tez oturduğu və kənd arvadlarının bardaqlarını doldurduqları və çiyinlərinə alıb evə apardıqlarına tamaşa etdiyi bulaq başına apardı; qonşunun qızlarını, Ketonun tay-tuşlarını, uşaqlıqda tez-tez birlikdə oynadıqları qadınları göstərdi, başqa kənddən onun dayəsini çağırtdırdı ki, bəlkə onu tanıya; onun gəlinciklərini göstərdi - qutuda bütünlüklə saxlanılmış oyuncaqlarını, bir neçə dəfə Ketonun diqqətini kilsə zənginin səsi cəlb etdi, uşaq vaxtı zəng səslənən zaman Keto onu əl çalmaqla qarşılayardı, lakin heç bir tədbir lazımi nəticəni vermədi.

Ata-anası Ketoya elə bir gürcü paltarı tikdirdilər ki, bütün gənc qızların gözü üstündə qalırdı, lakin Keto ona heç yaxın da getmədi və bundan sonra özünün ləzgi paltarlarını daha çox sevdi.

Axırda bir qonşu Maqdaniyə dedi: Keto sənə çox oxşayır, bütün sir-sifəti anasınınkıdır; Sizin güzgünün qarşısında dur və Ketonu da yanında otuzdur.

O, güzgüyə baxacaq, iki sifəti bir-biri ilə müqayisə edəcək, özü ilə sənin sifətin arasında çoxlu oxşarlıqlar görəcək və bəlkə bu sənə köməklik etdi.

Maqdani bunu da sınaqdan keçirtdi, lakin bu Ketonu daha da təəccübləndirdi, Maqdaninin qəribə hərəkəti onu çaş-baş saldı, heç onun üzünə də baxmadı, ona görə də sifətləri arasındakı oxşarlıqları da tamamilə görə bilməzdi.

Gənc qadın ata-anasının əlindən gedirdi, xəstələnmədən solurdu, əriyirdi və ölümün qapısının ağzında idi.

- Yox, mən bu uşağın bu əzab və əziyyətlərinə dözə bilmərəm; əgər bir neçə gün ərzində üzünü biz tərəfə döndərməsə, ata mindirəcək və öz əlimlə aparıb naibə və onun arvadına tapşıracağam.

Görünür, çox layiqli insanlar imişlər ki, özlərini bizim doğma övladımıza belə sevdiriblər, - dedi Zurab öz arvadı Maqdaniyə.

Maqdani isə Ketonu belə asan güzəştə gedə bilməzdi və yeganə övladını öz yanında torpağa tapşırmağa hazır idi, nəinki təkrarən və həmişəlik Dağıstana göndərməyə.

Bu minvalla aprel də gəlib keçdi və gözəl may qədəm qoydu. Elə birinci may səhəri baharsayağı buludlaşdı və şimşək çaxmağa başladı.

Axşamadək güclü və həyatverici yağış gözlərini yumub tökdü, axşam çağı isə göyün üzü elə təmizləndi ki, səmada bir əlçim bulud belə yox idi. Göy qübbəsi bütünlüklə parlaq ulduzlarla doldu.

Olduqca xoşagələn hava yarandı. Heç şübhəsiz, bunun səbəbi idi ki, Keto həmin gecə rahat yatdı. O biri gün bir balaca taqətə gəlmiş halda oyandı.

Müqayisəedilməz səhər idi: ətraf bərq vuran Günəşdən aldığı parlaq işıqla bütün fəvvarəni öz nuruna qərq etmişdi və bu işıqlı səhər hər şeyi min rəngdə əks etdirirdi.

Meşə quşların həyatverici civiltiləri ilə dolmuşdu. Kartveladzenin bağında qızılgül qönçələri ağzını zanbaq kimi açmışdı və ətrafı öz ətrinə qərq etmişdi.

Bu qızılgüllərin yaxınlığında, elə oradaca ağaca qonmuş bülbül şirin-şirin cəh-cəh vururdu. Təbiət gülürdü, bayram edirdi, sanki min toyu birdən edirdi.

Təbiət insanın kədər və dərdinin müqayisə olunmaz müalicəsidir. O Ketonun nisgilli qəlbinə də kömək etdi və sifətində o qorxulu kədərin azaldığı hiss olundu, bu nisgil onun qəlbini və ağlını qorxulu yuxu kimi sarmışdı və ətraf həyatda nələr baş verdiyini dərk etməyə imkan vermirdi.

Bununla əlaqədar, Keto ilk dəfə bu barədə düşünməyə başladı ki, yad adamlar nəyə görə və nə üçün ona bu qədər məhəbbət göstərirlər, mənim kədərimə nə üçün bu qədər narahatlıq keçirirlər.

Anası bu xoş dəyişikliyi asan duydu, ümidi artdı. Bir tərəfdən həmin ümid və digər tərəfdən gözəl yaz səhəri Maqdanini xoş əhval-ruhiyyəyə gətirdi və o, tamamilə qeyri-iradi olaraq, öz-özünə beşik mahnısını zümzümə etməyə başladı.

Keto itdiyi gündən sonra Maqdaninin mahnısının səsini heç kəs eşitməmişdi. On illik sükutdan sonra bu onun ilk mahnısı idi.

Maqdani pəncərənin yanında oturmuşdu, Keto isə otağın küncündə balaca taxtın üstündə rahatlanmışdı. Maqdani beşik mahnısını əvvəlcə alçaq səslə, zümzümə ilə oxuyurdu, sonra isə öz gözəlliyi onu qanadlarına aldı və özünəməxsus yanğı ilə oxutdurdu, səsini ucaltdı.

Bir balaca, qeyri-ixtiyari Ketoya doğru baxdı və mat-məəttəl qaldı. Ketonun sifətindəki həyəcan aydınca hiss olunurdu. Aydın idi ki, nəyi isə yadına salırdı və dəqiq anşırda bilmirdi.

Onun təbiətinin dərinliyində çoxdan basdırılmış xatirə oyanırdı, lakin oyanmadı, idrakının dərinliyindən hansısa arzu olunan xatirə püskürmək istəyirdi, lakin qat-qat başqa təsəvvürlər onları aşağı sıxışdırırdı və yuxarı qalxmalarına mane olurdu.

Maqdani bunları yaxşıca görüb hiss etdi və səsinə möcüzəvi hazinlik, cazibədarlıq qatdı. Əvvəllər həmin səslə və həmin mahnı ilə hər gün öz qızının - Ketonun uşaqlıq günlərini şirinləşdirirdi.

Maqdanın səsi Ketonun qəlbinin dərinliyinə sirayət etdi, onu yerindən surətdə silkələdi və orada basdırılmış uşaqlığının ülvi qalıqlarını, xatirələrini canlandırdı, Maqdani gah səsinə cəlbedici güc verirdi və gah da sərhəd bilməyən ana məhəbbəti ilə Ketoya baxırdı.

Keto da şanki anasının sir-sifətini gözləri ilə yeyirdi və həyəcanla onun şifətində nə isə böyük bir sirri oxumağa çalışırdı və oxudu da.

Ketonun həyəcanlı çöhrəsi get-gedə sakitləşdi, sir-sifətindən qara buludlar tamamilə çəkildi, simasına müəyyənləşdirici şüanın qızartısı çökdü və sevinc şüaları bərq vurmağa başladı. Keto birdən taxtın üstündən sıçrayıb qalxdı, arzu dolu səslə qışqırdı:

"Anacan!" Cəld Maqdaniyə doğru atıldı, hər iki əli ilə onun boynuna sarıldı və anasını dadlı öpüşlərlə öpməyə başladı. Ana ilə balanın gözlərindən yaş sel kimi axırdı, lakin bu sevinc, nəşə, şadlıq yaşı idi.

Bir azca bundan sonra Zurab da qapını açıb içəri girdi. Keto anasının qollarının arasından sıçrayıb çıxdı, Zurabın üstünə atıldı və "Ata!" deyə bağırdı və onun boynuna sarıldı.

Sonra anasının yanına qayıtdı, əlindən tutdu, o biri otağa apardı, böyük güzgünün qarşısında öz yanında dayandırdı, sevinclə göz gəzdirdi, lakin nə isə onun fikrini dəyişməyə məcbur etdi, sürətlə güzgüdən uzaqlaşdı, o biri otağa qaçdı, qutunu açdı, təzə gürcü paltarını götürdü və ləzgi paltarlarının əvəzinə geyindi. Sonra yenidən məəttəl qalmış anasını güzgünün qarşısına apardı, yanında dayandırdı. Sifətlərini müqayisə etdi, anasına necə çox oxşadığını aşkarca gördü, ona doğru çevrildi, boynundan asıldı və yenidən onu öpməyə başladı. Əvvəllər Maqdaninin bu cür hərəkəti onu təəccübləndirirdi, indi isə özü də beləcə hərəkət etdi. Sonra anasına gəlinciklərin saxlandığı qutunu açdırdı və keçmiş dostlarını sevinclə əzizlədi.

Bir xatirə o biri xatirəyə səbəb oldu, ikinci - üçüncüyə, üçüncü - dördüncüyə və özünün uşaqlıq illərinin hadisələri gözləri önündə güzgü kimi açıldı. Keto anasına dinclik vermirdi və gah bağçaya,

bulaq başına, gah - meşəyə aparırdı və kəndin ətraflarını dolandırdı. Gürcü dilini də yadına saldı, lakin sözlər çox azlıq edirdi. Danışıq zamanı dayanırdı, yaxud da ləzgi sözləri qatırdı və bu zaman anası gürcü sözlərini öyrədirdi.

Hər bir vaşlovanili, istər böyük olsun, istər kiçik, istər qadın olsun, istər kişi, Ketonun özünə gəlib, hər şeyi xatırlamasından sevinirdi, axın-axın gəlir və Maqdani və onun ərini təbrik edirdilər, Ketonu sevindirirdilər. Kartveladzelərin evində sevinc hökm sürürdü. Bu güclü sevincə məhz Maqdaninin tez-tez oxuduğu mahnı necə də yaraşırdı və ona rövnəq verirdi. Necə ki, uzun müddət susuz qalmış cüyür müqəddəs suyu acgözlüklə sorduğu və tezliklə doymadığı kimi.

Keto da bütün on il ərzində məhrum olduğu anasının mahnılarının ən gözəl ləzzətini doymaq bilmədən dinləyir və Maqdaniyə dinclik vermirdi. Maqdani bir mahnını bitirən kimi, yeni mahnını oxutdururdu, sonra – üçüncüsünü, dördüncüsünü. Maqdani tez-tez deyirdi: - Qadan alım, bala, bir az dincəl, yoxsa hərəkətim yoxdur. — Lakin Keto bu yorğunluğun sağaldıcı dərmanını bilirdi: anasını sevinclə bağrına basmaq və öpüşlərə qərq etmək. Keto anasının həzin mahnılarını dinləməklə həm məzələnir və həm də özü də mahnı öyrənirdi.

***

Bir dəfə, Keto yeni həyatla ürəyini dolduran zaman, anasından soruşdu: "Anacan, qadan alım, ola bilərmi ki, kiminsə vasitəsilə Dağıstana salam göndərək?"

Bu sözlər Maqdaninin xoşuna gəlmədi və dayandı.

- Fikir eləmə, ana, - Keto övlad məhəbbəti ilə dedi. - Səni də, atamı da sevirəm, necə ki, doğma valideynlər kimi, onlara isə hörmət bəsləyirəm, necə ki, mənim qayğıkeşlərim və tərbiyəçilərim kimi. Əgər onlar olmasaydılar, kim bilir, kimin əlinə düşəcəkdim və başıma nələr gələcəkdi?

Xüsusi göndərilmiş adamların vasitəsilə naibə və onun arvadına salam göndərdilər və sovqat kimi Kaxet şərabı da qoydular. O zaman ki, ləzgilər bu şərabı heç də kaxetlilərdən az içmirdilər.

Yay ötüb keçdi. Ana görürdü ki, Keto öz analıq-atalığını çox görmək istəyir, lakin bunu demir, üzə vurmurdu. Bir dəfə Maqdani Ketoya dedi: "Bilirsənmi, mənim əzizim, başıma belə bir fikir gəlib?

İndi üzüm yığımı yaxınlaşır, Dağıstanda üzüm yoxdur və orada üzüm yığımı bilmirlər, gəl, sənin analıq-atalığını üzüm yığımına dəvət edək və onları əyləndirək, yaxşılığın əvəzini çıxmaq lazımdır". Təşəkkür əlaməti olaraq Keto anasını sevinclə sinəsinə sıxdı.

Naib və onun arvadı Ketonu çox görmək istəyirdilər, ona görə də üzüm yığımına dəvət olunmaq onları çox sevindirdi və təyin olunmuş vaxtda övladlığa götürdükləri qızın ata-anasına qonaq getdilər.

Ata-anasının razılığı ilə Keto öz analıq-atalığını ləzgi paltarında qarşıladı. Ketonun sevincinin həddi-hüdudu yox idi, çünki özünün dörd nəfər qiymətli insanını bir yerdə görürdü, bütün qəlbi və ruhu ilə sevdiyi insanları.

Zurab və naib dostlaşdılar, Maqdani da naibin arvadını ürəkdən sevdi və hər payız fəsli onları üzüm yığımına dəvət etmək ənənəyə çevrildi.

Bu ənənə bir neçə ildən sonra Keto anasının vətənində ərə getdikdən və bir nəfər Kartli igidi ilə nigah kəsdikdən sonra da dəyişmədi.

Hər sentyabr ayında Kartlidən qızı və kürəkəni, Dağıstandan - naib arvadı və əməlesi ilə qonaq gəlirdilər. Keto heç təsəvvürünə belə gətirə bilmirdi ki, kimsə öz həyatında üzüm yığımını Keto qədər ləzzətlə və xoşbəxtliklə keçirmiş olardı

***

Doğma ata-anasının və analıq-atalığının məhəbbəti Ketonun qəlbində bir yerdə cəmləşdi. Axırda buna ləyaqətli ərinin və uşaqlarının məhəbbəti də əlavə olundu.

O, gürcüləri də və ləzgiləri də, Gürcüstanı da və Dağıstanı da özününkü hesab edirdi və bir halda ki, məhəbbətdən məhəbbət doğulur, ona görə də gürcülər və ləzgilər sanki bir-birləri ilə yarışırdılar ki, kim Ketoya daha çox hörmət edəcək, xətrini daha çox istəyəcək və məhəbbət bəsləyəcəkdir.

*Gürcü dilindən tərcümə:*
**Emin Mahmudov**


XƏZƏR UNİVERSİTETİ
"DÜNYA" MƏKTƏBİ
SUMQAYITDA
- Xəzər Universitetinin Sumqayıtda yeni fəaliyyətə başlayan Dünya Məktəbi şagird qəbulu elan edir:
- Məktəbəqədər hazırlıq (5-6 yaş) - Azərbaycan, rus, ingilis dillərində
- Tədris bütün siniflər üzrə - Azərbaycan, rus dillərində
- İB Proqramları üzrə təhsil ingilis dilində
- İB diplomu əldə edən məzunlar dünyanın tanınmış universitetlərində birbaşa bakalavr təhsili almaq imkanı əldə edirlər.
- Məktəbdə Amerika universitetlərinə qəbul imkanı verən SAT kursları və SAT test mərkəzi fəaliyyət göstərir.
- Qəbul imtahanlarında yüksək nəticə göstərən şagirdlər güzəştli ödənişlə təhsil almaq hüququ qazanırlar.
- Keyfiyyətli təhsil almaq üçün zəngin kitabxana,müasir avadanlıqlarla təchiz olunmuş sinif otaqları və laboratoriyalar mövcuddur.
- Şagirdlərin hərtərəfli inkişafını təmin edən idman, rəqs, dram, musiqi və müxtəlif dərnəklər
- Şagirdlər sağlam qidalanır, məktəbə rahat və təhlükəsiz gediş-gəliş üçün avtobus xidməti ilə təmin edilirlər.
145
DÜNYA MƏKTƏBİ
Ünvan: Sumqayıt şəhəri, 44-cü məhəllə, Bakı küçəsi
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33
(+994 50) 669 86 33
E-mail: info@dunyaschool.az
www.dunyaschool.az




## Valideynlərin və şagirdlərin nəzərinə!

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-cı tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (International Baccalaureate Organization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

# Dünya məktəbi

---

# Məktəbəqədər hazırlıq

2016-2017 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan, xaricə ən çox tələbə göndərən, xaricdən oxumağa tələbələrin ən çox gəldiyi, xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti öz tədris proqramlarının müasirliyi, verdiyi təhsilin keyfiyyəti və ciddiliyi, geniş beynəlxalq əlaqələri ilə həm Azərbaycanda, həm də onun hüdudlarından çox-çox uzaqlarda geniş hörmət və nüfuz qazanmışdır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

2016-cı il iyunun 14-də **QS** (World University Rankings) təşkilatı inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycanın ən yaxşı ali məktəbi seçilməklə yanaşı, göstərilən bölgənin ilk 70 ali təhsil müəssisəsi arasında yer almış yeganə Azərbaycan universitetidir.

2016-cı il senyabrın 6-da **QS** (World University Rankings) təşkilatı dünya üzrə ali təhsil müəssisələrinin 2016-2017-ci il üçün reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti dünya universitetləri sırasında 701+ yeri, Azərbaycan universitetləri arasında isə 1-ci yeri tutmuşdur.

**Universitetin maddi-texniki bazası**

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

**Təhsil və karyera imkanları**

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi və xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

**Təhsil haqqının ödənilməsində güzəştlər**

Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
450-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**



**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

I qrup üzrə:

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi

II qrup üzrə:

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər
- Turizm və otelçilik

III qrup üzrə:

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

IV qrup üzrə:

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya
- Kimya və biologiya müəllimliyi

**Universitetdə kadr hazırlığı aparılan bütün ixtisaslarda ödənişsiz və ya dövlət hesabına təhsil almaq mümkündür.**

Ünvan: Məhsəti küçəsi, 41
Əlaqə telefonları: (012) 421-68-11, (012) 417-91-33,
-Faks: (012) 498-93-79
-Email: contact@khazar.org
http//www.khazar.org